39 (1448) 8-14 oktyabr 2026-cı il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Əsas məqsəd əczaçılıq sənayesinin inkişaf etdirilməsi, yerli istehsalın təşviqidir

Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında dərman istehsalı müəssisəsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Pirallahı Sənaye Parkında "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin dərman istehsalı müəssisəsinin açılışında iştirak edib.

Əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye zonaları və Pirallahı Sənaye Parkının fəaliyyəti barədə məlumat verib.

Qeyd edək ki, Pirallahı Sənaye Parkı Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmanla yaradılıb. Əsas məqsəd əczaçılıq sənayesini inkişaf etdirmək və dəstəkləmək, əczaçılıq məhsulları üzrə idxaldan asılılığı azaltmaq, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində məşğulluğu artırmaqdır. Pirallahı Sənaye Parkında 6 rezident qeydiyyatdan keçib.



"Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin təsisçisi Abidin Gülmüş müəssisə barədə Prezident İlham Əliyevə məlumat verib.

Bildirilib ki, bu müəssisəyə 2023-cü ildə Pirallahı Sənaye Parkının rezidenti statusu verilib. Təsisçilər Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri Sanayi A.Ş." şirkəti (66%), İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) (29%) və Türkiyənin "SİA Pharmaceuticals" şirkətidir (5%). Ümumi dəyəri 113,9 milyon manat olan layihənin maliyyələşdirilməsində özəl investisiya ilə yanaşı, Azərbaycan Biznesinin İnkişafı Fondunun 13,2 milyon manat investisiyasından, 10 milyon manat isə güzəştli kredit vəsaitindən istifadə edilib. Sənaye Parkının rezidenti kimi müəssisə 7 milyon manatdan çox ƏDV və gömrük rüsumlarından azad olunub.

Müəssisənin inkişaf perspektivlərinə istehsalın artırılması, 5 il ərzində 500-dən artıq preparatın istehsalının lokallaşdırılması, daxili tələbatın maksimum dərəcədə qarşılanması və ixrac coğrafiyasının genişləndirilməsi daxildir.

Zavodda ABŞ, Yaponiya, Almaniya, İsveçrə, Çin, Danimarka, İsveç və Türkiyənin aparıcı şirkətlərinin istehsalı olan avadanlıq quraşdırılıb ki, bu da yüksək beynəlxalq standartlara uyğun dərman vasitələrinin istehsalına imkan verir. Məhsulların daxili bazara satılması ilə yanaşı, Özbəkistan, Qazaxıstan, Gürcüstan və digər xarici ölkələrə ixracı da nəzərdə tutulur.

"Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir"

"Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir".

Bu sözləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı deyib.

Otuz ildən çoxdur ki, partiyanın iqtidarda olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Ölkəmizin son illər ərzində uğurlu və şərəfli yolunda partiyamızın fəallarının çox böyük payı var, böyük töhfəsi var".***

O, deyib: "İlk dəfədir ki, qurultayımız Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra keçirilir. Çünki o şanlı Zəfərimizdən cəmi bir neçə ay



keçmişdir və bütün dünya bizim Zəfərimizdən danışırdı. Azərbaycan özü təkbaşına həm işğala son qoymuşdur, eyni zamanda, bölgədə yeni reallıqlar yaratmışdır. O vaxtdan - İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən bu günə qədər bu reallıqlar bütün dünya tərəfindən qəbul edilir".

"Bugünkü Ermənistan iqtidarı bizə qarşı ərazi iddiaları ilə çıxış edirdi"

"Bütün günahları əvvəlki Ermənistan rəhbərliyinin üstünə yıxmaq da olmaz. Halbuki əvvəlki Ermənistan rəhbərləri, onların hamısı hərbi cinayətkarlardır və öz cəzalarını çəkməlidirlər".

Bu sözləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı söyləyib.

"Bugünkü Ermənistan iqtidarı bizə qarşı ərazi iddiaları ilə çıxış edirdi, Azərbaycan xalqını təhqir etməyə çalışırdı, yersiz və mədəniyyətsiz açıqlamalarla Azərbaycan xalqının heysiyyətinə toxunurdu", - deyən dövlətimizin başçısı bildirib ki, bütün bunları biz heç vaxt unutmamalıyıq.

"Şanlı Zəfərimizdən sonra fəaliyyətimiz ərazi bütövlüyümüzün tam bərpasına istiqamətləndirilmişdi"

"Bizim şanlı Zəfərimizdən sonra fəaliyyətimiz ərazi bütövlüyümüzün tam bərpasına istiqamətləndirilmişdi".

Bu fikri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı söyləyib.

Dövlətimizin başçısı qeyd edib ki, bir gün belə ara vermədik, bu şərəfli missiyamızın həyata keçirilməsində bir gün də istirahət etmədik. Nəticə etibarilə İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər olan dövr ərzində biz bir neçə cəbhədə fəaliyyət göstərmişik.

"Heydər Əliyevin hakimiyyətə qayıtması xalqın tələbi idi"

"Yeni Azərbaycan Partiyasının yaradılması, yenə də deyirəm, xalqın tələbi idi". Bu barədə Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqın tələbi idi. Əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt imkan verə bilməzdi ki, Azərbaycan xalqının başına bu oyunlar açılsın, heç vaxt imkan verməzdi ki, separatizm meyilləri Qarabağda yer alsın. Dövlətimizin başçısı vurğulayıb ki, ona görə Azərbaycan xalqı bütün bunları yaxşı bilərək öz nicat yolunu ancaq Heydər Əliyevlə bağlayırdı.

"Bu gün Azərbaycan beynəlxalq müstəvidə böyük hörmətə layiq olan ölkədir"

Bu sözləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı deyib.

Dövlətimizin başçısı vurğulayıb ki, bir çox tanınmış ekspertlər və təhlilçilər Azərbaycanı artıq orta güc dövləti sırasına daxil edirlər. Bunun da bir çox parametrləri var. Biz iqtisadi müstəqilliyi tam təmin etmişik və bu gün beynəlxalq aləmin çox dəyərli üzvüyük, öz taleyimiz öz əlimizdədir.

"Ulu Öndərin siyasi xətti dəyişməz olaraq qalır"

Bunu Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib.

"Təbii ki, illər keçdikcə taktiki və hətta strateji məqsədlər də müəyyən dərəcədə dəyişir, amma ana xətt dəyişməz olaraq qalır - müstəqillik, dövlətçilik, iqtisadi müstəqillik, güclü hərbi potensial və öz imkanlarımızdan maksimum istifadə etmə imkanları", - deyə dövlətimizin başçısı vurğulayıb.

"Əsas vəzifələrdən biri hərbi gücümüzün artırılmasıdır"

Bu sözləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı deyib.

Bizim şanlı Zəfər qazandığımızı, bu gün Azərbaycanla Ermənistan arasında münaqişənin olmadığını və digər amilləri sadalayan dövlətimizin başçısı bunun (hərbi gücümüzün artırılması – red.) nə üçün lazım olduğuna aydınlıq gətirərək qeyd edib: "Buna cavab, məncə, çox açıq-aydındır. Bu, həmişə lazımdır, hər bir ölkə üçün. Çünki bizim xalqımız bu faciə ilə üzləşib".

“Xarici siyasətimizi elə qurmalıyıq ki, heç kim bizim işimizə müdaxilə etməsin”



“Bizim ideoloji məkanımız yad ünsürlərdən, yad təsirlərdən azad olmalıdır. Bu, eyni zamanda, bizim xarici siyasət strategiyamızdır”.

Bu fikirləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı söyləyib. Dövlətimizin başçısı vurğulayıb: ***“Biz xarici siyasəti elə qururuq və bundan sonra da qurmalıyıq ki, heç kim bizim işimizə müdaxilə etməsin. Bizə heç kimin köməyi də lazım deyil, himayədarlığı da lazım deyil”.***

“Müasir ideoloji işlər aparılmalıdır”

“Düzgün ideoloji işin qurulması, şablonlardan əl çəkmək, hansısa formal xarakter daşıyan tədbirlərdən əl çəkmək vaxtı gəlib çatıb. Yəni yeni, müasir ideoloji işlər aparılmalıdır”.

Bu barədə Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib. “Bizim üstünlüyümüz ondan ibarətdir ki, bəzi ölkələrdən fərqli olaraq bizə əfsanə yaratmaq lazım deyil”, - deyə dövlətimizin başçısı əlavə edib.

“Gələn il minimum əməkhaqqı, pensiyalar, sosial müavinətlər qaldırılacaq”

“Artıq göstəriş verildi, gələn il minimum əməkhaqqı qaldırılacaq, pensiyalar qaldırılacaq, sosial müavinətlər qaldırılacaq”.

Bu barədə Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib.

“Bu siyasəti biz müntəzəm aparırıq ki, Azərbaycan xalqının rifahı ildən-ilə yaxşılaşsın”, - deyə dövlətimizin başçısı vurğulayıb.

“Bizə heç kimin köməyi, himayədarlığı lazım deyil. Silah alanda bizə bir dollar güzəşt etməyiblər, hətta bir neçə dəfə baha satıblar”

“Xarici siyasəti biz elə qururuq və bundan sonra da qurmalıyıq ki, heç kim bizim işimizə müdaxilə etməsin. Bizə heç kimin köməyi də lazım deyil, himayədarlığı da lazım deyil. Bizə lazım olan vaxtda bizə heç kim kömək etməyib. Bir milyon qaçqınımız olanda heç kim bizə əl uzatmayıb. Nə almışıqsa, pulla almışıq”.

Bunu Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev bildirib.

Prezident çıxışına belə davam edib: “O cümlədən bütün silahları da pulla almışıq, özü də dünya qiymətinə - son güllələ qədər. Mən sizə tam məsuliyyətlə deyirəm, Ali Baş Komandan kimi, bütün bu məsələlərə rəhbərlik edən şəxs kimi. Bilirsiniz ki, 2003-cü ildən bu yana Azərbaycan nə qədər silahlanıb, həm yerli istehsalı yaradıb, həm xaricdən alıb. Bir dəfə də bizə bir manat, bir dollar güzəşt etməyiblər. Hətta bəzən dünya qiymətindən bir neçə dəfə baha satıblar. Biz də məcbur olub buna göz yummuşuq. Ona görə bu, çox ciddi bir məsələdir”.

Dünya Bankı Azərbaycanın iqtisadi artım proqnozunu yeniləyib

Dünya Bankı 2026-cı ildə Azərbaycan iqtisadiyyatının 1,2%, 2027-ci ildə isə 1,8% artacağını proqnozlaşdırır. Bu barədə Dünya Bankının Avropa və Mərkəzi Asiya regionunun iqtisadi perspektivlərinə dair hesabatının oktyabr buraxılışında bildirilib.

Hesabata əsasən, Bank 2026-cı il üzrə Azərbaycanın ÜDM artımı proqnozunu aprel qiymətləndirməsi ilə müqayisədə 0,8 faiz bəndi azaldıb. 2027-ci il üzrə iqtisadi artım proqnozu isə dəyişdirilməyərək 1,8% səviyyəsində saxlanılıb. Dünya Bankı xatırladır ki, 2025-ci ildə Azərbaycan iqtisadiyyatı 1,4% artıb.



“Heç vaxt hansısa ölkəyə qarşı riyakarlıq göstərməmişik”

Bu barədə Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib.

“Halbuki belə münasibətlərlə dəfələrlə üzləşmişdik və bu gün də üzləşirik”, - deyən dövlətimizin başçısı qeyd edib ki, amma biz heç vaxt onlar kimi ola bilmərik. Prezident, həmçinin vurğulayıb: “Biz özümüzə hörmət edən insanlarıq, biz ləyaqətlə yaşayırıq, siyasətimizi də ləyaqətlə aparırıq. Bizim timsalımızda hər kəs görə bilər ki, bu mümkündür”.

“Azərbaycan bu gün çox ciddi geosiyasi və təhlükəsizlik faktoruna çevrilib”

“Enerji resursları ilə zəngin olan Azərbaycan bu gün çox ciddi geosiyasi və təhlükəsizlik faktoruna çevrilib”.

Bu sözləri Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı deyib. ***“Çünki enerji təhlükəsizliyi - bu, hər bir ölkənin milli təhlükəsizliyi deməkdir və bizim rolumuz daha da artacaq”,*** - deyə dövlətimizin başçısı əlavə edib.

“Bundan sonrakı illərdə Böyük Qayıdış daha da sürətlə gedəcək”

“Qarabağ və Şərqi Zəngəzurda 96 min insan yaşayır, çalışır, təhsil alır”.

Bu barədə Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı bildirib. Bu bölgələrin inkişafına bu günə qədər 28 milyard manat vəsaitin ayrıldığını qeyd edən dövlətimizin başçısı deyib: “Onların böyük əksəriyyəti infrastruktur layihələrinə istiqamətləndirilib. Onların böyük hissəsi başa çatıb və eyni zamanda, bu gün 48 yaşayış məntəqəsində keçmiş köçkünlər artıq məskunlaşıb. Bundan sonrakı illərdə Böyük Qayıdış daha da sürətlə gedəcək”.

“Neft məhsulları ilə bağlı yaşanan böhran daha da dərinləşəcək”

“Yeni geosiyasi və iqtisadi reallıq ondan ibarətdir ki, bu gün bir çox ölkələr enerji resurslarını əvvəlki kimi əldə edə bilmirlər. Burada yenə də Azərbaycan nadir ölkələrdəndir ki, dünya miqyasında bütün növ enerji resurslarını istehsal edir, hasil edir və ixrac edir – xam neft, neft məhsulları, təbii qaz, elektrik enerjisi, neft-kimya məhsulları və gübrələr. Bunların da istehsalı üçün əsas mənbə enerjidir”.

Bunu oktyabrın 2-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev bildirib.

Prezident çıxışına belə davam edib: “Bu gün xüsusilə neft məhsulları ilə bağlı yaşanan böhran əfsuslar olsun ki, yəqin daha da dərinləşəcək. Çünki bu böhranın iki mənbəyi var, biri bizim Şimalımızda, ikincisi isə Körfəz bölgələrində - Cənubda. Artıq ənənəvi təchizatçılar bəziləri daxili tələbatı ödəmək üçün məcburən ixracı dayandırırlar.

Burada onu da deyə bilərəm ki, Azərbaycana bir çox ölkələrdən müraciətlər daxil olur, xahişlər gəlir ki, biz istehsal etdiyimiz neft məhsullarını o ölkələrə ixrac edək. Biz isə bütün işləri vaxtında görmüşük. Bizim bu gün potensialımız, - mən təkcə neft məhsullarını nəzərdə tuturam, - 30 milyon tondur. Bunun 7 milyon tonu Azərbaycanda neftayırma zavodunda emal olunur, 23 milyon tonu isə xaricdə. Bax, bunu biz vaxtında etdik. Bir zavodu sıfırdan qurduq, iki zavod aldıq. Bu gün 30 milyon ton neft məhsullarına sahib olan, - özü də tək yerdə yox, üç yerdə, - ölkələr də çox deyil. Ona görə nəzərə alsaq ki, bir daha deyirəm, əfsuslar olsun, bizim ətrafımızda gedən müharibələr dayanmır, - biz çox istərdik ki, dayansın, amma dayanmır, - ona görə bizim məhsullarımıza, qazımıza tələbat daha da artacaq”.

"Mən hədəf qoymuşam - Azərbaycandan keçən yüklər 30 milyon tona çatacaq

"Ölkəmizin önəmi getdikcə daha da artacaq. Buraya əgər biz nəqliyyat sektorunu əlavə etsək, - bu barədə də çox danışmaq istəmirəm, - sadəcə olaraq deyə bilərəm ki, bu il Azərbaycan ərazisindən keçən gözlənilən tranzit yüklərin həcmi 16 milyon tona çatacaq. Yəni bu, böyük bir artımdır. Vaxtilə biz 3-4 milyon tonu arzulayırdıq. İnfrastruktur yaratdıq, təmaslar qurduq, o cümlədən lazımi inzibati tədbirləri gördük və bu dəhlizləri - Orta Dəhlizi və Şimal-Cənub Dəhlizini çox cəlbedici etdik". Bunu Yeni Azərbaycan Partiyasının (YAP) VIII Qurultayında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev bildirib.

Prezident əlavə edib: "Ancaq biz yarı yoldayıq. Mən qarşıya hədəf qoymuşam ki, Azərbaycan ərazisindən keçən tranzit yüklər orta müddətdə 30 milyon tona çatacaq. Gör nə qədər bizə əlavə vəsait gələcək, minlərlə iş yerləri yaradılacaq və ölkəmizin önəmi daha da artacaq".

Azər Əmiraslanov: "Müharibədə milli iqtisadiyyatımız döyüşdü, üzüağ çıxdı"

(əvvəli ötən sayımızda)

Nəzərə almalıyıq ki, parlamentin funksiyası həm də dövlət büdcəsini təsdiqləmək, onun icrasına nəzarət etmək, dövlət proqramlarının həyata keçirilməsi vəziyyətini, hökumətin və digər dövlət qurumlarının fəaliyyətini müzakirə etmək və təkliflər irəli sürməkdir. Hökumətin fəaliyyətinə rəy bildirilməsi parlamentin əsas mandatlarından biridir. Nazirlər Kabinetinin fəaliyyətinə dair hesabatın Milli Məclisə təqdim edilməsi kimi konstitusion prosedur da məhz bununla bağlıdır. Deputatın hökumətin fəaliyyətini sağlam, konstruktiv tənqid etməsi özü də müəyyən mənada hökumətin fəaliyyətinə dəstək verilməsidir.

- Bəs məmurun və millət vəkilinin media fəaliyyəti, fəallığı arasında fərqlər nədən ibarətdir?

- Millət vəkili mediaya açıq olmalıdır, publik şəxs kimi çıxış etməlidir. Məhz bu baxımdan da mətbuatla iş sahəsində millət vəkili həm təcrübə toplamalı, həm də onun bir media immuniteti yaranmalıdır. Bu immunitet mətbuatdan qorunmaq deyil, bütün hallarda öz üslubunu təqdim etməkdir.

İcra hakimiyyətində çalışan məmur, bir qayda olaraq, dövlət institutunun nümayəndəsidir. Onun media davranışı daha çox xidməti subordinasiya, səlahiyyət dairəsi, müvafiq sistemin qaydaları və konkret dövlət mövqeyi ilə çərçivələnir.

Deputat açıq siyasi məkanda fəaliyyət göstərir. O, həm konstitusion institutun nümayəndəsidir, həm seçicinin təmsilçisidir, həm də fərdi siyasi simaya malik publik şəxsdir. Parlamentari üçün media ilə işləmək sadəcə PR məsələsi deyil, peşəkar keyfiyyətdir və müəyyən mənada parlament fəaliyyətinin tərkib hissəsidir.

Deputat mətbuat qarşısında mövqeyini əsaslandırmağı, sərt suallara cavab verməyi, tənqidə dözümlü olmağı öyrənir. Məmur üçün təmkin və reqlament nə qədər vacibdirsə, parlamentari üçün kommunikasiya və ictimai polemikaya hazırlıq bir o qədər zəruridir.



"Deputat bloger və ya influenser məntiqi ilə fəaliyyət göstərməməlidir"

- Bir qədər əvvəl məmurun media immunitetindən danışdıq. Deputat isə ictimai şəxsdir və media ilə ünsiyyətdə olmalıdır. Sizin mediaya uyğunlaşmağınız nə qədər vaxt apardı? Haqqınızda tənqidi yazılar görəndə necə reaksiya verirsiniz? Sizdə media immuniteti yaranıbmı?

- Təbii ki, yaranıb. Mənim mətbuatla əməkdaşlığım hələ 1988-ci ildən – İqtisad Universitetinin (UNEC) birinci kursunda oxuduğum vaxtdan başlayıb. Hələ tələbəlik illərində çox nüfuzlu, peşəkar və təcrübəli jurnalistlərlə əməkdaşlığım olub və onlardan çox şey öyrənmişəm. Öz peşəsinə hörmətlə yanaşan, analitikası olan jurnalistlərin məqalələri hər zaman maraqla qarşılanıb və təqdir edilib. Media təkcə müxtəlif ictimai-siyasi, sosial-iqtisadi məsələləri işıqlandırmır, həm də məmurda və ya millət vəkilində məsuliyyət yaradır, onların intellektual baxımdan formada qalmalarına kömək edir. Xüsusilə də, millət vəkili öz parlament fəaliyyətini demək olar ki, media mənsubları ilə birlikdə həyata keçirir. Azərbaycanda istedadlı jurnalistlər çoxdur və onların fəaliyyətini yüksək qiymətləndiririk. Onların arasında imzasını artıq təsdiq etmiş dostlarımız da az deyil...

Peşəkar jurnalist yazıları hətta bizə ünvanlanmış tənqiddən ibarət olsa belə, dəyərləndiriləcəkdir. Lakin bir də var məzmunu, məramı bilinməyən sosial media şərhləri... Sosial şəbəkədə fəal istifadəçi olmaq dövlətçilik təfəkküründən və dövlət ərkanından, etik davranış qaydalarından uzaqlaşmağa əsas vermir.

- Bu gün sosial medianın təsiri getdikcə artır, klassik media isə müəyyən mənada yerini sosial şəbəkələrə verir. Belə bir fikir var ki, deputat cəmiyyətə daha yaxın olmaq üçün sosial şəbəkələrdə fəal olmalıdır. Siz buna necə baxırsınız?

- Hər bir millət vəkili özünün kommunikasiya siyasətini və texnologiyasını özü müstəqil, uyğun bildiyi şəkildə müəyyənləşdirir. Və hər bir mövqeyə də hörmətlə yanaşırıq. Mənim şəxsi yanaşmama görə, millət vəkili öz siyasi və parlament fəaliyyətini bloger və ya influenser məntiqi üzərində qurmamalıdır. Deputatın əsas funksiyası sosial şəbəkədə daim kontent yaratmaq, gündəlik hadisələrə operativ reaksiya vermək və ya populyarlıq qazanmaq deyil. Deputat öz fəaliyyətini həddindən artıq sosial şəbəkə məntiqinə tabe etdirirsə, onda siyasət və qanunvericilik işi tədricən populizmə, gündəlik reaksiya yarışına və görüntü yaratmağa çevrilə bilər. Nəzərə almalıyıq ki, parlament fəaliyyəti bir qayda olaraq araşdırma, hüquqi və iqtisadi ekspertiza, uzunmüddətli təhlil, tədqiqat və düşüncə tələb edir. Bunlar sosial şəbəkənin sürətli və emosional formatı ilə uzlaşmır.

Amma müasir dövrdə millət vəkili bloger olmasa da, publik şəxs kimi əlçatan və görünən olmalıdır. Deputatın cəmiyyətlə kommunikasiyası onun fəaliyyətinin ayrılmaz hissəsidir. Bununla belə, sosial media millət vəkili üçün özünü nümayiş etdirmə platforması deyil, seçicini məlumatlandırmaq, parlament fəaliyyəti barədə hesabat vermək, çıxışlarını paylaşmaq imkanıdır. Sosial media parlamentari üçün məqsəd deyil, vasitədir. Fikrimcə, deputatın sosial şəbəkədə fəallığının keyfiyyətini postlarının və ya izləyicilərinin sayı deyil, onun seçicilərlə nə dərəcədə səmərəli kommunikasiya qurması müəyyən edir.

Deputatlara və parlamentə münasibətdə sosial medianın rolu

- Cəmiyyətdə sanki belə bir fikir var ki, Azərbaycanda parlamentə, deputatlara münasibət birmənalı deyil. Ya narazılıq var, ya da münasibət mənfidir. Hətta savadlı və peşəkar deputat haqqında da sosial şəbəkələrdə dərhal "savadsızdır", "seçilməyib" kimi ifadələr yazılır. Bu münasibətin səbəbini nə ilə izah edirsiniz?

- "Cəmiyyət parlamentin, deputatların fəaliyyətindən narazıdır, münasibəti mənfidir" kimi ümumiləşdirilmiş hökm vermək doğru deyil.

Birincisi, cəmiyyət vahid monolit subyekt deyil. Cəmiyyətdə parlamentin fəaliyyətini müsbət qiymətləndirən, tənqid edən, həm də ümumiyyətlə parlamentin fəaliyyəti haqqında dərin məlumatı olmayan müxtəlif sosial qruplar var. Buna görə ayrı-ayrı şərhləri bütövlükdə "cəmiyyətin mövqeyi" kimi təqdim etmək obyektiv olmaz.

İkincisi, "cəmiyyət narazıdır" fikri səsləndirilirsə, bunun əsası olmalıdır. Hansı sosioloji sorğuya əsaslanırıq? Sosial şəbəkələrdə səslənən ən kəskin şərhlərimi nəzərdə tuturuq? Əgər belədirsə, bunu bütün cəmiyyətin mövqeyi kimi təqdim etmək düzgün deyil. Çünki sosial media ictimai rəyin bir hissəsidir, bütövlükdə cəmiyyətin özü deyil.

Üçüncüsü, parlamentin hansı fəaliyyət istiqaməti qiymətləndirilir? Qanunvericilik fəaliyyəti, deputatların seçicilərlə işi, parlament nəzarəti, yoxsa parlamentin mediada görünüşü? Bu qiymətləndirmənin meyarları nədir?

Məncə biz parlamentin tənqid olunması ilə ona qarşı qərəzli, əsassız münasibəti fərqləndirməliyik. Tənqid ilə instituta etimadsızlığı bir-birindən ayırmaq lazımdır. Vətəndaşın "deputatlar daha fəal olmalıdır", "parlament nəzarəti güclənməlidir", "müzakirələr daha canlı olmalıdır" deməsi parlament institutuna etimadsızlıq demək deyil. Əksinə, belə tələblər çox zaman parlamentdən daha çox şey gözlənildiyini göstərir. Vətəndaşın əhəmiyyət vermədiyi institutdan gözləntisi olmaz.

Biz təbii ki, sosial medianın rəyini, hətta səslənən tənqidi fikirləri nəzərə almalıyıq. Lakin konstruktiv rəy və təkliflərlə bəzi sosial şəbəkələrdəki qərəzli, qeyri-sağlam şərhləri eyniləşdirmək olmaz.

(davamı 6-cı səhifədə)

"Yeni nəsil energetiklər: Şəbəkənin memarları" Ümumrespublika Yarışının daha bir regional turu geridə qalıb

"Azərişıq" ASC-nin təşkilatçılığı ilə keçirilən "Yeni nəsil energetiklər: Şəbəkənin memarları" ümumrespublika yarışı davam edir. Ağdaşda maarifləndici yarışın Mərkəzi Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (RETSİ) üzrə regional turu təşkil olunub.

110/35/10 kV-luq "Ağdaş" yarımstansiyasında baş tutan açılış mərasimində "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Seymur Mirzəyev çıxış edərək maarifləndirmə proqramının keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, ümumrespublika yarışının təşkili peşəkar kadrların hazırlığı, yeni nəsil energetiklərin formalaşdırılmasında mühüm rol oynayır.

Rəsmi hissədən sonra birinci mərhələyə start verilib. İntellektual yarışda "Ağdaş EŞ", "Bərdə EŞ", "Goranboy EŞ", "Göyçay EŞ", "Mingəçevir EŞ", "Tərtər EŞ", "Ucar EŞ", "Yevlax EŞ" komandaları nəzəri biliklərini sınayıblar. Onlar bu mərhələdə 20 açıq tipli sualı cavablandırıblar.

İkinci mərhələdə energetiklər peşə bacarıqlarını nümayiş etdiriblər. Onlar müəyyən edilmiş vaxtlar ərzində 3 praktiki tapşırığı – 10 kV-luq elektrik xəttində təmir-bərpa, elektrik cərəyanına düşmüş şəxsin xilas edilməsi, ilkin tibbi yardım göstərilməsi və yanğınsöndürmə əməliyyatlarını yerinə yetiriblər.

Hər iki mərhələnin nəticələrinə əsasən "Göyçay EŞ" regional turun qalibi olub. Beləliklə, komanda ümumrespublika yarışının Hadrutda təşkil olunacaq final mərhələsində iştirak etmək hüququ qazanıb.



NEFTDƏN VƏ QARABAĞDAN SONRAKI AZƏRBAYCAN



Zahid Oruc,
Milli Məclisin İnsan hüquqları komitəsinin sədri

(əvvəli ötən sayımızda)

Azalan dinamika neft strategiyasının tarixi uğurlarını əsla inkar etmir: enerji gəlirləri dağılmış iqtisadiyyatın bərpasına, güclü ordunun formalaşdırılmasına və ölkənin siyasi təhlükəsizliyinin möhkəmlənməsinə imkan verdi. Lakin Qarabağ məsələsinin həllindən və yüksək neft hasilatı mərhələsinin geridə qalmasından sonra regional üstünlüyün yeni iqtisadi dayaqlar üzərində qurulması həyati əhəmiyyət daşıyır.

Rəsmi büdcə proqnozları neft hasilatının 2024-cü ildə 29,1 milyon tondan 2028-ci ildə 26,6 milyon tona qədər azalacağını bildirir. 2029-cu ildə "Abşeron" yatağının tammiqyaslı işlənilməsi hesabına 27,4 milyon tona qədər müəyyən bərpa gözlənsə də, ümumi trend əvvəlki yüksək hasilat mərhələsinin geridə qaldığını göstərir. Regional liderliyi gələcəkdə ÜDM-dəki payla yanaşı, adambaşına məhsuldarlıq, qeyri-neft ixracı, milli valyutanın gücü, qabaqcıl texnologiya və xarici bazarlara çıxış qabiliyyəti ilə ölçmək lazımdır.

Müharibə və iqtisadiyyat: 2020-dən sonrakı fərqli trayektoriyalar

2020-ci ildə Azərbaycan iqtisadiyyatı 4,3 faiz azaldı. Vətən müharibəsinə çəkilən çoxmilyardlıq xərclərin ümumi məbləği indiyədək rəsmən açıqlanmasa da, böyük həcmdə milli resursun Qələbəyə yönəldildiyi şübhəsizdir. Bununla yanaşı, pandemiya, dünya neft qiymətlərinin çökməsi, xidmət və nəqliyyat sektorundakı məhdudiyyətlər də iqtisadi daralmaya təsir göstərirdi. 44 günlük müharibədən sonra bərpa öhdəliyi büdcə siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Son beş ildə azad edilmiş ərazilərə yönəldilən vəsaitlər təxminən Küveyt ərazisinə bərabər, 17 min kvadrat kilometrdən artıq bir coğrafiyanın minalardan təmizlənməsi, yenidən məskunlaşdırılması və iqtisadi dövriyyəyə qaytarılması ilə bağlıdır.

Ermənistanda isə 2020-ci ildə real ÜDM təxminən 7,2-7,6 faiz azaldı. BVF həmin ili pandemiya və müharibənin yaratdığı "ikiqat şok" kimi qiymətləndirirdi. Büdcə kəsiri ÜDM-in təxminən 7 faizinə qədər genişləndi, dövlət borcu isə bir ildə on faiz bəndindən çox artaraq 60 faizi keçdi. Bu göstəricilər İkinci Qarabağ müharibəsinin iki iqtisadiyyata eyni təsir göstərmədiyini ortaya qoyur.

Ermənistanın son iqtisadi sıçrayışı: struktur artım, yoxsa geosiyasi mənfəət?

Müharibə yeni iqtisadi reallıq yaratdı. Ermənistanın 2020-ci il məğlubiyyətindən sonra sürətlə böyüməsi regional müqayisədə ayrıca izah tələb edir. Ölkə 2022-ci ildə 12,6, 2023-cü ildə 8,3, 2024-cü ildə 5,9 faiz real artım göstərdi. Gözlənilməz nəticəni yalnız daxili islahatlarla izah etmək doğru deyil. Əsas dönüş 2022-ci ilin fevralından, Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsindən sonra baş verdi.

Dünya Bankının təhlillərinə görə, Ermənistan eyni vaxtda bir neçə xarici axından faydalandı: Rusiyadan insanlar, şirkətlər və kapital gəlirdi, Qərbin sanksiyalarından sonra ticarətin bir hissəsi Ermənistan üzərindən yönəlməyə başlamışdı. 2022-ci ildə Rusiyadan girişlərin sayı əvvəlki illə müqayisədə təxminən 440 min nəfər artdı, sonrakı mərhələdə 60-100 min Rusiya vətəndaşının ölkədə qaldığı rəsmən təsdiqlənirdi. Digər hesablamalarda 2022-ci ilin martından sonra 2 600 şirkət, 6 000 fərdi sahibkar və 113 min qeyri-rezidentin Ermənistana köçdüyü göstərilir. Dörd illik axın İKT, maliyyə, daşınmaz əmlak, restoran-hotellər, pərakəndə satış və tikintidə tələbi gücləndirdi. 2022-ci ildə pul köçürmələri 29 faiz artdığı rəsmi təsdiqlənir, birbaşa xarici investisiyanın ÜDM-də payı 2,5 faizdən 4,7 faizə yüksəlib.

Ən mübahisəli kanal re-eksport idi. Qərb sanksiyalarından sonra maşın, avadanlıq, avtomobil və müxtəlif malların bir hissəsi Ermənistan üzərindən Rusiyaya yönəlirdi. 2022-ci ildə Ermənistan-Rusiya ticarəti təxminən iki dəfə, Rusiyaya ixrac üç dəfə artmışdı. Sonradan Rusiya mənşəli qiymətli daş və metalların BƏƏ və Çinə yönəldilməsi də ixrac statistikasını böyütdü. Xidmətlər balansı isə 2019-cu ildə ÜDM-in -0,7 faizindən 2023-cü ildə təxminən müsbət 9 faizə keçdi.

Lakin Ermənistanın iqtisadi uğurlarını bütövlükdə "sanksiya fürsəti" adlandırmaq da yanlış olar. Ölkənin çevik sahibkarlıq mühiti xarici axınların iqtisadi təsirini gücləndirir. Sürətli artım iki mənbəyə söykənir: daxili struktur potensialı və Rusiya-Ukrayna müharibəsinin yaratdığı müvəqqəti geosiyasi fayda hələ də davam edir.

Fərq nominal ÜDM-də xüsusilə açıq görünür. Ermənistanın ÜDM-i 2021-ci ildə 13,9 milyard dollardan 2025-ci ildə 29,2 milyarda yüksəlib. Dollarla iki dəfədən çox artımın hamısını real istehsalın yüksəlməsi ilə izah etmək olmaz. Adambaşına nominal ÜDM-də Azərbaycanın önünə keçilməsi ciddi siqnaldır, lakin qısamüddətli uğur Ermənistanın avtomatik olaraq daha sənayeləşmiş və ya dayanıqlı iqtisadiyyata çevrildiyini göstərmir.

Regional üstünlüyün yeni ölçüsü

2008-2015-ci illərdə regional liderliyi bir rəqəmlə göstərmək mümkün idi: Azərbaycanın ÜDM-i iki qonşunun cəmini xeyli üstələyirdi. İndi vəziyyət daha mürəkkəbdir. Neft Azərbaycanın geosiyasi təhlükəsizlik və iqtisadi hərəkətverici qüvvəsi statusunu hələ də qoruyur, lakin post-neft mərhələsində sürətli inkişaf artıq təbii resurs üzərində qərarlaşa bilməz. Prezident İlham Əliyevin 11 sentyabr 2026-cı ildə təsdiq etdiyi "Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027-2029-cu illər üzrə Milli Fəaliyyət Planı" azad rəqabət mühitinin gücləndirilməsini, iqtisadi azadlığın, biznes və investisiya imkanlarının genişləndirilməsini nəzərdə tutur.

Azərbaycanın post-neft iqtisadiyyatında yeni vergi siyasəti artıq Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunur. İşğaldan azad edilmiş ərazilərdə çalışan biznes subyektləri 2023-cü ildən başlayaraq 10 il müddətinə mənfəət və gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib.

(davamı 9-cu səhifədə)

Azərbaycan Sığortaçılar Assosiasiyasının üzvləri ilə görüş keçirilib



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları çətinliklərin öyrənilməsi və biznes mühitinin təkmilləşdirilməsi məqsədilə assosiasiyalarla keçirilən görüşlər davam etdirilir. Növbəti belə görüş DVX-nin Vergi siyasəti baş idarəsi ilə Azərbaycan Sığortaçılar Assosiasiyasının üzvləri arasında baş tutub.

Görüş zamanı Dövlət Vergi Xidməti ilə Azərbaycan Sığortaçılar Assosiasiyası arasında əvvəlki müzakirələr çərçivəsində təqdim edilən təkliflərin vergi qanunvericiliyinə dəyişikliklər zamanı nəzərə alınması ilə bağlı ətraflı məlumat verilib. Assosiasiya nümayəndələri tərəfindən bu formatda keçirilən görüşlərin biznes mühitində mövcud çağırışların operativ şəkildə müəyyənləşdirilməsi və effektiv həll mexanizmlərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Müzakirələr zamanı assosiasiya nümayəndələri sığorta sektorunda real praktiki əməliyyatların aparılması prosesində qarşılaşdıqları çətinlikləri və sahənin inkişafı üçün əhəmiyyətli hesab etdikləri təklifləri səsləndiriblər. Görüşdə sığorta təşkilatları tərəfindən təqdim edilən elektron qaimə-fakturaların tərtibi zamanı tətbiqi aktual hesab olunan texniki yeniliklər və sığortaçıların həyata keçirdikləri əməliyyatlar üzrə vergi qanunvericiliyi məsələləri geniş müzakirə edilib. Yekunda dövlət - biznes əməkdaşlığının daha da inkişaf etdirilməsi və vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində sahibkarların rəy və təkliflərinin öyrənilməsi üçün görüşlərin davam etdiriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.

İqtisadiyyat naziri Rəqəmsal Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşüb



Rəqəmsal transformasiya, innovasiya və texnologiya sahələrində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Rəqəmsal Əməkdaşlıq Təşkilatının (DCO) Baş katibi Dima Əl-Yəhya ilə görüşüb.

Görüşdə rəqəmsal iqtisadiyyatın iqtisadi diversifikasiyaya və rəqabətqabiliyyətliliyin artırılmasına töhfəsi, texnologiya sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi və innovasiyalar əsasında məhsuldarlığın yüksəldilməsi məsələləri müzakirə olunub.

Startapların, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin, eləcə də yüksək inkişaf potensialına malik şirkətlərin dəstəklənməsi, rəqəmsal ticarətin inkişafı və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi istiqamətində əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Tərəflər rəqəmsal transformasiya, innovasiya və texnologiya sahələrində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər.

Ahıl şəxslər üçün tədbir keçirilib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən, hər il olduğu kimi, sosial məsuliyyət tədbirləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün Bilgəh qəsəbəsində yerləşən sosial xidmət müəssisəsində Beynəlxalq Ahıllar Günü qeyd edilib.

Tədbirdə Dövlət Vergi Xidmətinin nümayəndələri ilə yanaşı, sosial xidmət müəssisəsinin əməkdaşları və sakinləri iştirak ediblər. Tədbirin təşkilindən öncə aidiyyəti quruma müraciət olunaraq müəssisənin ehtiyacları öyrənilib, qurumun təklifləri üzrə ianələr olunub. Qeyd olunub ki, ahıl insanlara göstərilən diqqət və qayğı bütün dövlət qurumları, o cümlədən Dövlət Vergi Xidməti tərəfindən də dəstəklənir, qurumun təşəbbüsü ilə yaşlı insanlarla görüşlər təşkil edilir, dəstəkləyici tədbirlər həyata keçirilir və onların qarşılaşdıqları məsələlər daim diqqətdə saxlanılır.

Azərbaycan Sahibkar Qadınlar İB-dən müəllimlərə dəyər: Beynəlxalq Müəllimlər Günü qeyd olunub







5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikası Sahibkar Qadınlar İctimai Birliyi (ASQİB) tərəfindən xüsusi tədbir keçirilmişdir. Tanınmış alim, pedaqoq, sahibkar və media nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə müəllim əməyinin cəmiyyətdəki əvəzsiz rolu vurğulanmışdır. Tədbir elm, təhsil, sahibkarlıq, mədəniyyət və media sahələrinin tanınmış nümayəndələrini bir araya gətirmişdir. Tədbirin əsas məqsədi müəllimlik peşəsinin cəmiyyətdəki mühüm roluna diqqət çəkmək, təhsil sahəsində çalışan insanların əməyini yüksək qiymətləndirmək və müxtəlif sahələrdə fəaliyyət göstərən ziyalılar arasında əməkdaşlığı təşviq etmək olmuşdur.

Tədbirin açılışında ASQİB-in sədri, peşəkar sahibkar və pedaqoq, Prezident mükafatçısı Zenfira Ağayeva, ASQİB-in həmsədri, rəssam-modelyer, Əməkdar incəsənət xadimi, dosent Fəxriyyə Xələfova, eləcə də ASQİB-in sədr müavini, peşəkar təhsil idarəçisi, Prezident mükafatçısı, TAİAP-nın rəhbəri Afaq Əliyeva iştirakçıları salamlamışlar. Müəllimlər 5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edilmiş, onlara möhkəm cansağlığı, yaradıcılıq və peşə fəaliyyətlərində yeni uğurlar arzulanmışdır.

Çıxışlarda bildirilmişdir ki, müəllimlik yalnız peşə deyil, gələcəyin formalaşdırılmasına xidmət edən böyük ictimai missiyadır. Müəllim gənc nəslə bilik verməklə yanaşı, onun dünyagörüşünün, milli-mənəvi dəyərlərinin və vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm rol oynayır. Tədbirdə Azərbaycanın elm və təhsil ictimaiyyətinin tanınmış nümayəndələri də çıxış edərək müəllimləri peşə bayramları münasibətilə təbrik etmişlər:

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik Ziyad Səmədzadə çıxışında müəllim əməyinin cəmiyyətin inkişafında xüsusi əhəmiyyət daşıdığını bildirmiş, dövlət tərəfindən təhsilin inkişafına göstərilən diqqəti vurğulamışdır. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamentinin direktoru, iqtisad elmləri doktoru, professor, Əməkdar müəllim Zahid Məmmədov təhsilverənləri təbrik etməklə yanaşı, davamlı inkişafı dəstəkləyəcək maraqlı ideya və layihələr barədə danışmış, universitet və sahibkarlıq arasında maarifləndirici əməkdaşlığın əhəmiyyətinə toxunmuşdur. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəis müavini, hüquq üzrə elmləri doktoru, dosent Mirəli Kazımov da öz çıxışında təhsilin və müəllim əməyinin cəmiyyətin inkişafındakı rolundan danışmaqla yanaşı, müasir müəllimin və məktəbin kadr hazırlığı - insan kapitalı üçün əhəmiyyətli mövqeyini qeyd etmişdir.

Tədbir zamanı səsləndirilən fikirlərdə ortaq məqam ondan ibarət olmuşdur ki, sürətlə dəyişən dünyada təhsilin keyfiyyəti və müəllimin peşəkarlığı ölkənin gələcək inkişafının əsas amillərindən biridir. Bu baxımdan müəllimlərin əməyinin ictimai səviyyədə təbliği və onların fəaliyyətinə verilən dəyərin artırılması xüsusi əhəmiyyət daşıyır.

Tədbirin diqqətçəkən məqamlarından biri də ASQİB-in yeni vəsiqələrinin təqdimatı olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes Məktəbinin direktor müavini Dünya Mustafayeva çıxış edərək yeni sahibkarları təbrik etmiş, qadın sahibkarlığının dəstəklənməsində yeni imkanlardan danışmış, sonra ASQİB-in yeni vəsiqələri təqdim olunmuşdur. Yeni vəsiqələrin təqdim edilməsi Birliyin fəaliyyətinin yeni mərhələsinin göstəricisi kimi qiymətləndirilmişdir. Bildirilmişdir ki, ASQİB bundan sonra da sahibkar qadınların, təhsil və elm nümayəndələrinin, müxtəlif peşə sahiblərinin bir araya gətirilməsi, onların təşəbbüslərinin dəstəklənməsi və qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində layihələr həyata keçirəcək.

Professor Nazim Müzəffərli Daimi Elmi Seminarda təqdimatla çıxış edib



Oktyabrın 7-də Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun növbəti Daimi Elmi Seminarı keçirilib.

Hibrid formatda keçirilən seminarda İnstitutun əməkdaşları ilə yanaşı, Nazirlər Kabinetinin, İqtisadiyyat Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Auditorlar Palatasının və digər iqtisadi yönümlü dövlət qurumlarının nümayəndələri, eləcə də ölkənin aparıcı universitetlərinin və elmi-tədqiqat institutlarının alim və tədqiqatçıları iştirak ediblər.

Seminarda ETN İqtisadiyyat İnstitutunun baş direktoru, professor Nazim Müzəffərli "Müqayisəli iqtisadi tədqiqatlarda ikiqütblü ölçmələr: qeyri-səlis yanaşma və genişləndirilmiş normallaşdırma" mövzusunda təqdimatla çıxış edib. O məruzəsində müqayisəli iqtisadi tədqiqatlarda ölçmə və qiymətləndirmə metodologiyasından, qeyri-səlis yanaşmaların tətbiqindən, iqtisadi göstəricilərin 0–1 intervalında normallaşdırılmasının mahiyyətindən və əhəmiyyətindən bəhs edib.



Təqdimatda professor N.Müzəffərlinin iqtisad elmləri doktorları Allahyar Muradov və Rəsmiyyə Abdullayeva ilə birgə apardığı tədqiqatlarda istifadə olunan hesablama metodologiyası və onun əsas meyarları da diqqətə çatdırılıb. Qeyri-səlis hesablama və qeyri-səlis məntiqin iqtisadi proseslərin təhlili və qiymətləndirilməsində tətbiqi imkanları, eləcə də bu yanaşmalar əsasında əldə olunan nəticələr barədə məlumat verilib.

Məruzədə müqayisəli iqtisadi tədqiqatlarda qeyri-səlis qiymətləndirmə və genişləndirilmiş normallaşdırmanın metodoloji xüsusiyyətləri, iqtisadi göstəricilərin [0,1] intervalında qiymətləndirilməsi və əldə olunan nəticələrin linqvistik interpretasiyası məsələləri təhlil olunub.

Eyni zamanda, İqtisadiyyat İnstitutunda ölkələr və regionlar üzrə aparılan müqayisəli tədqiqatlarda tətbiq olunan metodoloji yanaşmalar təqdim edilib. Bu çərçivədə iqtisadiyyatın liberallıq-dirijistlik balansının qiymətləndirilməsi istiqamətində aparılan araşdırmalar – Bilik iqtisadiyyatının liberallıq (dirijistlik) indeksi, Sosial müdafiə sisteminin liberallıq (dirijistlik) indeksi, İnformasiya sisteminin liberallıq (dirijistlik) indeksi, Xarici iqtisadi əlaqələrin liberallıq (dirijistlik) indeksi, Qiymətqoymanın liberallıq (dirijistlik) indeksi, həmçinin Azərbaycan bölgələrinin müqayisəli qiymətləndirilməsi ilə bağlı tədqiqatlar seminar iştirakçılarının diqqətinə çatdırılıb.

Təqdimatdan sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb. Seminar iştirakçılarının sualları cavablandırılıb, mövzu ilə bağlı elmi və metodoloji məsələlər müzakirə olunub.

(əvvəli 3-cü səhifədə)

Belə yanaşmalar həm sosial mediaya, həm də jurnalist adına kölgə salır. Sosial şəbəkələrdə sistemli şəkildə əsassız ittiham və şəxsi qarayaxma xarakterli yanaşmalara da rast gəlinir.

Parlament müstəvisində tənqidi təbii dəyərləndiririksə, onun özünün də tənqid obyekti olmasını normal qəbul etməliyik. Düşünürəm ki, hər bir millət vəkili parlamentin konstitusion, qanunverici və siyasi institut kimi təhlilinə və akademik tədqiqinə, onun siyasi, iqtisadi və hüquqi sistemin islahatlarında roluna, yeni çağırışların nəzərə alınmasına dair analitik şərhləri böyük məmnuniyyətlə oxuyar və təqdir edər.

Məncə, sosial mediada müəyyən tənqidi şərhlərlə yanaşı, Milli Məclisin rəhbərliyinin və deputatların dövlətimizin maraqlarını beynəlxalq tribunalarda qətiyyətlə qoruması, Milli Məclisin parlament diplomatiyasına ciddi töhfəsi, millət vəkillərinin beynəlxalq tədbirlərdə ardıcıl milli və dövlət təəssübkeşliyi nümayiş etdirməsi, parlamentin işinin səmərəli təşkili ilə bağlı qeydləri obyektiv mövqe sərgiləmiş olardı.

Qanun layihələri üzərində aparılan iş, ekspertlərlə aparılan müzakirələr, dövlət qurumları ilə əməkdaşlıq, beynəlxalq fəaliyyət cəmiyyətə çox vaxt görünmür. Bu səbəbdən parlamentin görünən fəaliyyəti ilə real fəaliyyəti arasında fərq yaranır.

Söhbət konkret millət vəkilinə ictimai münasibətdən gedirsə, onun üçün ən yaxın və birbaşa ictimai rəy həlqəsi seçildiyi dairənin seçicilәridir.

Eyni zamanda, deputat yalnız öz seçki dairəsinin nümayəndəsi deyil. O, ümummilli qanunverici mandat daşıyır. Buna görə deputat üçün ictimai münasibətin birinci həlqəsi onun seçicilәridirsə, daha geniş həlqəsi bütövlükdə cəmiyyət və dövlət qarşısındakı məsuliyyətidir.

- Bəs cəmiyyətin parlamentin fəaliyyətinə bu qədər həssaslıqla yanaşması nə ilə izah olunur?

- Hər şeydən əvvəl nəzərə almalıyıq ki, parlament ən çox müzakirə olunan dövlət təsisatıdır. Deputatlar daim ictimaiyyət qarşısındadırlar, onların çıxışları, mövqeləri görünür. İcra hakimiyyətinin bir çox qərarları inzibati mexanizmlər daxilində hazırlanırsa, parlamentdə fikir ayrılığı, müzakirə və polemika ictimai şəkildə baş verir. Ona görə də parlament çox vaxt digər dövlət institutlarından daha çox tənqid obyektinə çevrilir. Bu, müəyyən mənada onun açıq siyasi institut olmasından irəli gəlir. Parlament təbiətcə siyasi institutdur. Siyasətdə isə gözlənti həmişə yüksəkdir. İnsanlar parlamenti sadəcə qanun qəbul edən orqan kimi deyil, problemlərin səsləndirildiyi, alternativ fikirlərin ifadə olunduğu əsas siyasi tribuna kimi görürlər.

Qələbədən sonra Azərbaycanın qarşısında duran yeni iqtisadi hədəflər

- Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra cəmiyyətdə yeni gözləntilər yarandı. İnsanlar həyatlarını və fəaliyyətlərini qələbədən sonrakı dövrün tələblərinə uyğun qurmaq istəyirlər. Bəzən bu gözləntilərin doğrulmaması müəyyən məyusluq da yaradır. Bu mərhələdə parlament və rəhbərlik etdiyiniz komitə qələbənin ölkənin inkişafına və insanların rifahına daha çox təsir göstərməsi üçün hansı addımları atmalıdır?

- Azərbaycan bu gün təkcə torpaqlarını işğaldan azad etmiş qalib ölkə deyil. O həm də dünyada nüfuzunu artıran, Prezident İlham Əliyevin qətiyyətli mövqeyi hesabına özünün dövlət və milli maraqlarını ardıcıl müdafiə edən, öz vətəndaşlarının təhlükəsizliyini etibarlı şəkildə qoruyan, dövlət idarəçiliyini modernləşdirən, ölkəmizin gələcəyi üçün strateji addımlar atan, yeni dövrün çağırışlarını nəzərə alan güclü, nüfuzlu dövlətdir.

Şanlı Ordumuzun, qəhrəman şəhidlərimizin və qazilərimizin şücaəti hesabına qazandığımız qələbə ölkəmizin inkişafı yolunda qarşımızda dayanan maneələri aradan qaldırmaqda, uzunmüddətli inkişaf və rifah üçün möhkəm təməllər yaratmaqdadır. Bu baxımdan biz dövlətimizlə, onun strateji kursu ilə, dövlət başçısının qətiyyəti ilə qürur duyur və fəxarət hissi keçiririk.

Təbii ki, ölkəmiz Şanlı Qələbədən sonra yeni mərhələyə qədəm qoyub. Müharibəyə qədərki dövr tamamilə fərqli idi və bu, həm dövlət büdcəsində, həm də iqtisadi siyasətdə özünü göstərirdi. Həmin mərhələ müharibəyə və qələbəyə hazırlıq dövrü idi.

Müharibə zamanı isə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi əsas prioritetə çevrildi, iqtisadiyyat da bu məqsədə kökləndi. Büdcə müzakirələri zamanı qeyd edirdik ki, müharibədə təkcə qəhrəman əsgərimiz, hərbi texnikamız deyil, milli iqtisadiyyatımız da döyüşür. Milli iqtisadiyyatımız və dövlət büdcəmiz bu sınaqdan qalib çıxdı.

Bu gün postmüharibə dövrünü yaşayırıq. Qarşımızda yeni çağırışlar və prioritetlər dayanır. Böyük Qayıdış Proqramı həyata keçirilir, işğaldan azad olunmuş ərazilər bərpa olunur. Bunu dövlət büdcəsinin strukturunda da görürük. Qarşıdakı dövrün əsas məsələlərindən biri bərpa prosesinin sürətlə həyata keçirilməsidir. Eyni zamanda təhlükəsizliklə bağlı tədbirlər davam etdirilir. Bəzi qeyri-müəyyənliklər qaldığı üçün dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə ayrılan xərclər hələ də böyük paya malikdir. Dövlətimizin və xalqımızın təhlükəsizliyi bunu tələb edir.

Bununla yanaşı, qalib dövlət kimi iqtisadi və sosial siyasətdə yeni prioritetlər nəzərə alınır. Söhbət müasir, innovativ və rəqəmsal iqtisadiyyatın qurulmasından gedir. Ən ali səviyyədə bu istiqamətdə təşəbbüslər artıq irəli sürülmüş və hazırda rəqəmsal keçid üzrə konkret addımlar atılmaqdadır. Təsadüfi deyil ki, Milli Məclis növbədənkənar sessiya dövründə innovativ iqtisadiyyatla bağlı mühüm qanun layihələri qəbul etdi. Cənab Prezidentin rəqəmsal inkişaf sahəsində qanunvericilik təşəbbüsü Parlament tərəfindən ən yüksək səviyyədə dəstəkləndi. Azərbaycanın davamlı iqtisadi artımı, büdcə dayanıqlığı, yüksək sosial rifah yeni innovativ iqtisadiyyatın təşəkkül tapmasından asılıdır.

Dünyada ölkələr arasında ciddi rəqabət gedir. Bu rəqabətdə geri qalmamaq üçün rəqəmsal iqtisadiyyat istiqamətində daha sürətli addımlar atılmalıdır. Qlobal səviyyədə rəqəmsal iqtisadiyyatın artım tempi 10-11 faiz olduğu halda, ənənəvi iqtisadiyyatda bu göstərici təxminən 3 faizdir. Buna görə də gələcək inkişaf yeni iqtisadiyyatın qurulması ilə sıx bağlıdır.

Azərbaycanda dövlət siyasətinin əsas prinsiplərindən və xüsusiyyətlərindən biri iqtisadi siyasətlə sosial siyasətin uzlaşdırılması və bir-birini tamamlamasıdır. Növbəti mərhələdə bu əlaqənin daha da gücləndirilməsi iqtisadiyyatın, sahibkarlığın və yeni texnologiyaların inkişafının həyat səviyyəsinə ötürülməsini təmin edəcəkdir.

Nazirlikdə Türkiyə nümayəndə heyəti ilə görüş olub



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin müavini Adnan Ertemin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Azərbaycan və Türkiyə arasında münasibətlərin qardaşlıq və strateji müttəfiqlik səviyyəsində olduğunu bildirib. Ölkələrimiz arasında digər sahələrdə olduğu kimi əmək və sosial müdafiə sahəsində əməkdaşlığın da daim inkişaf etdiyini və getdikcə genişlənməkdə olduğunu qeyd edib. Prezident cənab İlham Əliyevin tapşırıqları əsasında son illər ölkəmizdə aparılan sosial islahatların nailiyyətləri barədə məlumat verən nazir bu islahatlar prosesində Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayıb.

İki nazirlik arasında Birgə Daimi Komissiya tərəfindən əmək və sosial müdafiə sahəsində əməkdaşlığın inkişafı üçün aparılan məqsədyönlü işlərin əhəmiyyəti diqqətə çatdırılıb. Müntəzəm təmasların və qarşılıqlı səfərlərin əlaqələrin dərinləşməsinə mühüm töhfə verdiyi bildirilib.

Adnan Ertem əməkdaşlığın daim inkişaf etməsinin və genişlənməsinin məmnunluq doğurdunu, təcrübə mübadilələrinin aparılmasının önəmini qeyd edib.

Görüşdə iki nazirlik arasında əməkdaşlıq gündəliyi, sosial müdafiə sahəsində əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Özbəkistanla əmək və sosial müdafiə sahəsində gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevlə Özbəkistan Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin direktoru Mansurbek Olloyerovun videokonfrans formatında görüşü olub.

Görüşdə ortaq tarixə, din və mədəniyyətə malik olan Azərbaycan və Özbəkistanın ənənəvi dostluq və qardaşlıq əlaqələri, strateji tərəfdaş ölkələr olduğu qeyd edilib. Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən 2023-cü ilin avqust ayında imzalanan "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"nin strateji tərəfdaşlığın dinamik inkişafında xüsusi önəm kəsb etdiyi vurğulanıb.

2023-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Özbəkistan Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun, bu sənədin icrası ilə bağlı ötən il imzalanan 2025-2027-ci illər üzrə Tədbirlər Planının əlaqələrin genişlənməsində əhəmiyyəti diqqətə çatdırılıb.

İki qurum arasında əməkdaşlıq gündəliyindən, o cümlədən dövlət sosial xidmətlərinin göstərilməsinin təşkili və onların rəqəmsallaşdırılması, əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində aparılan fəal təcrübə mübadilələrindən bəhs olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin təşkilatçılığı ilə 23 oktyabr 2026-cı il tarixində Xankəndidə keçiriləcək "SocGov 2026: Ağıllı İdarəetmə üçün Rəqəmsal Analitika" beynəlxalq forum diqqətə çatdırılıb. Forumun sosial xidmətlərin rəqəmsallaşdırılması və süni intellektin sosial sektorda tətbiqi sahəsində təcrübə mübadiləsi aparmaq üçün geniş imkanlar yaradacağı bildirilib.

Görüşdə əmək və sosial müdafiə sahəsində gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.



Azərbaycan və Böyük Britaniya arasında əməkdaşlığa dair 4 sənəd imzalanıb



Azərbaycan və Birləşmiş Krallıq arasında Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası çərçivəsində protokol, eləcə də yaşıl enerji və nəqliyyat bağlantıları, şəhər mobilliyi sahələrində əməkdaşlığı əhatə edən 4 sənəd imzalanıb.

Sənədləri Azərbaycan tərəfdən energetika naziri Pərviz Şahbazov, qarşı tərəfdən Biznes, İnnovasiya, Elm və Ticarət Nazirliyinin ticarət üzrə dövlət naziri Lord Anas Sarvar imzalayıb.

Sənədlər sırasında "Xlinks" və "Yaşıl Dəhliz Alyansı" arasında Anlaşma Memorandumu, UKEF və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında Yol Xəritəsi, eləcə də Britaniyanın müvafiq qurum və şirkətləri ilə nəqliyyat, təhsil və digər istiqamətlər üzrə əməkdaşlıq sənədləri yer alıb.

"Siemens Energy" Transxəzər yaşıl enerji dəhlizi layihəsinə qoşulur

"Green Corridor Alliance" birgə müəssisəsi və Almaniyanın "Siemens Energy" şirkəti Transxəzər yaşıl enerji dəhlizi layihəsi çərçivəsində elektrik ötürmə sistemlərinin yaradılması sahəsində tərəfdaşlığın qurulması üçün baza formalaşdıran Anlaşma Memorandumu imzalayıblar".

Bunu "Green Corridor Alliance"ın baş direktoru Tural Əliyev bildirib.

İmzalanmış sənəd irimiqyaslı enerji layihəsinin həyata keçirilməsi kontekstində tərəflərin qarşılıqlı fəaliyyət istiqamətlərini, o cümlədən mümkün konsaltinq formatlarını müəyyən edir. Memorandum Qazaxıstan Prezidenti Kasım Jomart Tokayevin Almaniyaya rəsmi səfəri çərçivəsində Berlində baş tutmuş Qazaxıstan-Almaniya biznes-forumunun kuluarlarında imzalanıb.

Qeyd edək ki, tərəflər bu ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində Məxfilik sazişi (NDA) imzalayıblar.

Azərbaycanın günəş enerjisi sahəsində əhəmiyyətli potensiala malik Qazaxıstan və Özbəkistanla birgə formalaşdırdığı "Mərkəzi Asiya-Azərbaycan" enerji dəhlizi gələcəkdə Xəzər-Qara dəniz dəhlizi ilə inteqrasiya oluna və iki dəniz vasitəsilə Mərkəzi Asiyanın geniş regionları ilə Avropa arasında əlaqələndirici marşrut yarada bilər. Azərbaycan, Qazaxıstan və Özbəkistan 2025-ci il aprelin 4-də Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankının dəstəyi ilə "Xəzər yaşıl enerji dəhlizi" təşəbbüsünün birinci mərhələsinə başlanması barədə qərar qəbul edib. İştirakçılar üç dövlətin enerji sistemlərinin inteqrasiyasını və bərpa olunan enerjinin Avropaya nəqli marşrutunun yaradılmasını nəzərdə tutan layihənin texniki-iqtisadi əsaslandırmasının işlənib hazırlanmasına dair əməkdaşlıq sazişi imzalayıblar.

Tütün şirkətinin ixracı 40 milyon dolları keçib



"Tabaterra"nın ixracı 76,5% artaraq 40,6 milyon dollara çatdı.

2026-cı ilin yanvar-avqust aylarında "Tbaterra" MMC-nin ixracı 40,6 milyon ABŞ dolları olub.

Marja.az İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"na istinadən xəbər verir ki, 2025-ci ilin eyni dövründə göstərici 23 milyon dollar təşkil etmişdi. Beləliklə, şirkətin ixracı 17,6 milyon dollar və ya 76,5% artıb.

Şirkətin yanvar-iyul ixracı 34,9 milyon dollar idi. Avqust ayında göstərici əlavə 5,7 milyon dollar artıb.

76,5%-lik illik artım "Tabaterra"nın ixrac yönümlü biznes modelinin genişləndiyini göstərir. Bununla belə, ixrac artımının hansı məhsul və bazarlar hesabına baş verdiyinə dair İİTKM cədvəlində ayrıca bölgü verilmir.

Azərbaycan ilə Böyük Britaniyanın tranzit yükdaşımalarının həcmi artıb

"Azərbaycan ilə Böyük Britaniya arasında tranzit yükdaşımalarının həcmi 2025-ci ildə 14 faiz artıb".

Bu sözləri energetika naziri Pərviz Şahbazov Azərbaycan Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasında çıxışı zamanı deyib.

O bildirib ki, qarşıdakı dövrdə əsas prioritetlərdən biri Orta Dəhlizin ötürücülük qabiliyyətinin daha da artırılması və rəqəmsallaşdırılmasıdır.

"Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar mövcuddur. 2025-ci ildə Azərbaycan ilə Böyük Britaniya arasında tranzit yükdaşımalarının 14 faiz artması bu potensialı əks etdirir. Rəqəmsal transformasiya da əməkdaşlığın perspektivli istiqamətlərindəndir. Süni intellekt, kibertəhlükəsizlik, məlumat mərkəzləri və insan kapitalının inkişafı sahələrində birgə təşəbbüslər üçün böyük potensial var", - deyə nazir qeyd edib.



Böyük Britaniyanın Azərbaycana olan investisiyalarının həcmi 39 milyard dolları ötür

"Azərbaycan ilə Böyük Britaniya arasında ticarət dövriyyəsi bu ilin ilk yarısında təxminən 6 dəfə artaraq 3,6 milyard dollara çatıb".

Bu sözləri energetika naziri Pərviz Şahbazov Azərbaycan Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında keçirilən Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasında çıxışı zamanı deyib.

O bildirib ki, iki ölkə arasında siyasi və iqtisadi əlaqələr qarşılıqlı etimad və inam əsasında inkişaf edir.

"Əldə olunan tərəqqi Azərbaycan-Böyük Britaniya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi üçün möhkəm zəmin yaradır. Böyük Britaniya 30 ildən artıqdır ki, investisiyaları və enerji sektorunda strateji əməkdaşlığı ilə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Böyük Britaniyanın Azərbaycana yatırdığı investisiyaların həcmi 39 milyard dolları ötür və bu ölkə Azərbaycanın ən böyük xarici investorudur", - deyə nazir vurğulayıb.

P.Şahbazov qeyd edib ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsi 67 faiz artıb: "Bu ilin ilk yarısında isə ticarət dövriyyəsi təxminən 6 dəfə artaraq 3,6 milyard dollara çatıb. Azərbaycanın Böyük Britaniyaya ixracı 24 dəfə artıb".

Kartdan karta səhv köçürülən pulu necə geri almaq olar?

Rəqəmsal bank xidmətlərinin geniş yayılması ilə kartdan karta pul köçürmələri də xeyli artıb. Bununla yanaşı, səhv köçürmələr də tez-tez rast gəlinən problemlərdən birinə çevrilib. Belə vəziyyətdə pulu geri almaq mümkündürmü? Qanun bu kimi hallarda nə deyir?

Vəkil Amid Əsgərov bu mövzuya aydınlıq gətirib.

Vəkilin sözlərinə görə, kartdan karta səhv pul köçürmələri zamanı göndərilən pulu geri almaq mümkündür. Amma bunun üçün işin gedişatından asılı olaraq müəyyən zaman tələb olunur: "İlk növbədə səhv köçürmə edən şəxs bu barədə banka məlumat verməlidir. Belə olan halda bank pulu alan şəxslə əlaqə yaradaraq, köçürmənin səhv həyata keçirildiyini və həmin məbləğin geri qaytarılmalı olduğunu bildirir. Pulu alan şəxs vəsaitin qaytarılmasına razı olduğu halda məsələ asanlıqla həll olunur".

A.Əsgərov bildirib ki, problem pulu alan şəxsin onu qaytarmaqdan imtina etdiyi hallarda yaranır. Belə olan halda yeganə həll yolu məhkəmə qaydasında həmin pulun tələb edilməsidir: "Burada isə çətinlik yaradan məsələ, pulu səhvən alan şəxs barəsində məlumatların əldə edilməsidir. Belə ki, bu məlumatlar bank sirrini təşkil edən məlumatlar olduğundan – bank həmin məlumatları pulu göndərən şəxsə verməkdən imtina edir. Bu halda ilkin olaraq məlumatların əldə edilməsi üçün, daha sonra əsassız varlanmış şəxsə qarşı iddia qaldırmaq üçün məhkəməyə müraciət olunmalıdır".



O qeyd edib ki, səhvən pulu əldə edən şəxs əsassız varlanmış sayılmaqla əldə etdiyi məbləği geri qaytarmağa borcludur: "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1091.1-ci maddəsinə əsasən əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etsin".

A.Əsgərov bildirib ki, pulu səhvən alan şəxs həmin məbləği xərcləyib-xərcləməməsindən asılı olmayaraq, həmin məbləği qaytarmalıdır.

Ələt Azad İqtisadi Zonasının ərazisində hava limanının fəaliyyətə başlayacağı tarix açılanıb



"Ələt Azad İqtisadi Zonasının əsas üstünlüklərindən biri onun ətraf ölkələrdəki digər azad iqtisadi və sənaye zonaları ilə müqayisədə daha geniş coğrafi imkanlara malik olmasıdır".

Bunu Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov Alman-Azərbaycan Əlaqələndirmə Konfransında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, zonanın cəlbediciliyini artıran digər mühüm amil onun beynəlxalq nəqliyyat dəhlizlərinin – Şimal-Cənub və Şərq-Qərb marşrutlarının kəsişməsində, həmçinin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşməsidir.

"Bir sıra müasir yüksək texnologiyalı sənaye sahələri üçün nəqliyyat imkanlarına birbaşa çıxış həyati əhəmiyyət daşıyır. Bu baxımdan Ələt Azad İqtisadi Zonasının ərazisində hava limanının və onun ətrafında logistika infrastrukturunun yaradılması ilə bağlı yerli yükdaşıma şirkətləri, metro və aviasiya strukturları ilə əməkdaşlıq edirik. Layihənin həyata keçirilməsi üçün 750 hektar torpaq sahəsi ayrılıb. Hava limanının tikintisinə 2024-cü ilin aprelində başlanılıb.

Tikinti işlərinin 2026-cı ilin sonunadək başa çatdırılması, hava limanının isə 2027-ci ilin mart ayının sonu – aprel ayının əvvəlində fəaliyyətə başlaması nəzərdə tutulur. Hava limanının ilkin mərhələdə illik yükdaşıma gücü 500 min ton təşkil edəcək. Sonrakı mərhələlərdə bu göstəricinin ən azı 2 milyon tona çatdırılması planlaşdırılır", – deyə V.Ələsgərov qeyd edib.

Orta Dəhliz inteqrasiya olunmuş logistika ekosisteminə çevrilməlidir

"Orta Dəhliz uzun illər Asiya ilə Avropa arasında alternativ nəqliyyat marşrutu kimi təqdim olunub. Lakin hazırda bu yanaşmanı daha geniş müstəvidə nəzərdən keçirmək və dəhlizi inteqrasiya olunmuş, etibarlı və rəqabətqabiliyyətli təchizat zənciri ekosisteminə çevirmək lazımdır".



Bunu "Silk Way West Airlines" şirkətinin vitse-prezidenti Vüqar Məmmədov Alman-Azərbaycan Strateji Tərəfdaşlıq və Bağlantılar Konfransında deyib.

O bildirib ki, dəhlizin gücü onun ayrı-ayrı hissələri arasındakı əlaqələrdən asılıdır. Dəmir yolları, limanlar, aviasiya, avtomobil nəqliyyatı, gömrük və rəqəmsal sistemlər ayrı-ayrılıqda deyil, vahid sistem kimi fəaliyyət göstərməlidir. Azərbaycan Mərkəzi Asiya, Xəzər dənizi, Qafqaz, Türkiyə və Avropa arasında yerləşməsi ilə bu əlaqələndirici rolu oynamaq üçün əlverişli mövqeyə malikdir.

Azərbaycan ərazisindən tranzit yükdaşımalarının həcmi artıb

"Son beş ildə Azərbaycan ərazisindən tranzit yükdaşımalarının həcmi təxminən iki dəfə artıb. Bu ilin sonuna tranzit yükdaşımalarının 16 milyon tona, 2030-cu ilədək isə 30 milyon tona çatacağı gözlənilir".

Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov Alman-Azərbaycan Strateji Tərəfdaşlıq və Bağlantılar Konfransı çərçivəsində "Nəqliyyat və logistika – Orta Dəhliz: Azərbaycanın strateji rolu və tərəfdaşlıqları" mövzusunda paneldə çıxışı zamanı deyib.

Konteyner daşımalarının da sürətlə artdığını qeyd edən nazir müavini deyib ki, ilin ilk doqquz ayında Bakı Limanında konteynerlərin emalı ötən ilin eyni dövrü ilə müqayisədə 30 faizdən çox artıb.

Onun sözlərinə görə, əməliyyatların



təkmilləşdirilməsi hesabına limanın konteyner emalı gücü 100 min TEU-ya çatdırılıb. İkinci mərhələnin başa çatdırılması ilə bu göstəricinin 500 min TEU-ya yüksəldilməsi nəzərdə tutulur.

R.Həsənov bildirib ki, Naxçıvan üzərindən Türkiyəyə planlaşdırılan bağlantı – Zəngəzur dəhlizi Azərbaycanın qərbə çıxış imkanlarını genişləndirəcək və 15 milyon tonadək əlavə yükdaşıma potensialı yaradacaq.

Bakıda Alman–Azərbaycan Strateji Tərəfdaşlıq və Bağlantılar Konfransı keçirilib



Oktyabrın 6-da Bakıda "Orta Dəhliz boyunca infrastrukturun, yaşıl enerjinin və rəqəmsal bağlantının maliyyə imkanları" mövzusunda Alman–Azərbaycan Strateji Tərəfdaşlıq və Bağlantılar Konfransı işə başlayıb.

Konfransın məqsədi ikitərəfli və regional iqtisadi əməkdaşlığı dərinləşdirmək, eləcə də Azərbaycanda və daha geniş regionda dayanıqlı inkişafın dəstəklənməsi üçün Almaniya və Avropa maliyyəsi, texnologiyası və ekspertizasını cəlb etmək olub.

Konfrans Almaniya, Azərbaycan və tərəfdaş ölkələrdən dövlət nümayəndələrini, maliyyə institutlarını, layihə sahiblərini və biznes liderlərini bir araya gətirib.

Tədbir çərçivəsində investisiya imkanları müzakirə olunub, həmçinin Orta Dəhliz boyunca infrastruktur, enerji keçidi və rəqəmsal bağlantı sahələrində strateji layihələrin maliyyələşdirilməsi imkanları nəzərdən keçirilib.

Konfrans Bakıda regional əməkdaşlıq və konstruktiv dialoq üçün mühüm platforma rolunu oynayır.

Almaniya və Azərbaycan birgə layihələrin hazırlanması imkanlarını genişləndirmək niyyətindədir



"Strategiyaların konkret layihələrə çevrilməsi üçün dövlət və özəl maliyyə imkanlarının səfərbər edilməsi mühüm əhəmiyyət daşıyır".

Bunu Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK Azerbaijan) icraçı direktoru Nərgiz Viek deyib.

N.Viek qeyd edib ki, tədbir çərçivəsində hökumət nümayəndələri prioritetlər və yeni başladılan proqramlar, biznes və beynəlxalq maliyyə institutlarının nümayəndələri isə praktiki təcrübə, maliyyələşdirmə mexanizmləri və layihələrin ehtiyacları barədə fikir mübadiləsi aparacaqlar.

Onun sözlərinə görə, tədbirin əsas məqsədlərindən biri real biznes imkanlarını müəyyənləşdirmək, şirkətlərin prosesə cəlb olunması üçün zəruri şərtləri müzakirə etmək, həmçinin Almaniya və Azərbaycan tərəfdaşları arasında birgə layihələrin hazırlanması və həyata keçirilməsi imkanlarını genişləndirməkdir.

"Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" ilə bağlı yekun investisiya qərarının veriləcəyi tarix açıqlanıb

"Qlobal enerji və ticarət arxitekturasının yenidən formalaşdığı, Orta Dəhlizin mühüm Şərq-Qərb bağlantısı kimi strateji əhəmiyyətinin artdığı bir vaxtda Azərbaycan-Almaniya tərəfdaşlığının enerji, infrastruktur və investisiya sahələrində inkişaf etdirilməsi xüsusi önəm daşıyır. Azərbaycan Almaniya ilə enerji əməkdaşlığını yeni mərhələyə yüksəltməyi hədəfləyir".



Bunu energetika nazirinin müavini Elnur Soltanov Alman-Azərbaycan Əlaqələndirmə Konfransında çıxışı zamanı deyib.

Nazir müavini qeyd edib ki, Orta Dəhlizin inkişafı onun mühüm enerji marşrutuna çevrilməsinə də təkan verir. "Azərbaycanı Cənubi Qafqaz, Mərkəzi Asiya, Türkiyə və Avropa ilə birləşdirən yaşıl enerji bağlantıları Orta Dəhlizin enerji ölçüsünü formalaşdırır. Azərbaycanın uzun illərdir Almaniyanın etibarlı neft təchizatçısıdır. 2026-cı ildən etibarən təbii qaz da enerji tərəfdaşlığının yeni istiqamətini təşkil edir. Gələcəkdə tərəfdaşlığımızı bərpa olunan enerji, enerji bağlantıları, enerji səmərəliliyi və daha geniş enerji keçidi istiqamətlərində inkişaf etdirmək əsas məqsədlərimizdəndir. Külək və Günəş enerjisi layihələri, Mərkəzi Asiyanın geniş bərpaolunan enerji resursları və strateji elektrik bağlantıları Avropanın enerji təhlükəsizliyi və enerji keçidi baxımından böyük imkanlar yaradır. Bu potensialın Avropa bazarlarına çatdırılması üçün "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi", Mərkəzi Asiya-Azərbaycan enerji dəhlizi, eləcə də Gürcüstan və Naxçıvan vasitəsilə Türkiyə və Avropaya qərb istiqamətli bağlantılar nəzərdən keçirilir. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi artıq texniki-iqtisadi əsaslandırmadan sonrakı mərhələyə keçib. Layihə üzrə yekun investisiya qərarının 2029-cu ildə qəbul edilməsi, mərhələli istismara verilmənin isə 2032-ci ildən başlanması nəzərdə tutulur", – deyə nazir müavini vurğulayıb.

8-14 oktyabr 2026-cı il

Dünya Bankından Azərbaycana yeni kredit – bu magistral yol yenidən qurulacaq



Oktyabrın 2-də Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini Anar Kərimov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Dünya Bankının "İş yerləri və iqtisadi artım üçün maliyyə əlçatanlığı" (FINGROW) və nəqliyyat missiyalarının əsas nəticələri, gələcək əməkdaşlıq istiqamətləri, eləcə də layihələrin hazırlanmasının və icrasının sürətləndirilməsi məqsədilə aidiyyəti dövlət qurumları ilə Dünya Bankı arasında koordinasiyanın gücləndirilməsi məsələləri müzakirə olunub. Anar Kərimov qeyd ki, maliyyə əlçatanlığının genişləndirilməsi, özəl sektorun maliyyələşdirilməsi və nəqliyyat infrastrukturunun inkişafı sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanlar mövcuddur.

"FINGROW" layihəsi üzrə hazırlıq işlərinə toxunan A.Kərimov layihə çərçivəsində nəzərdə tutulan qismən kredit zəmanəti və kapital maliyyələşdirilməsi komponentlərinin həyata keçirilməsi üçün müvafiq maliyyələşdirmə və hüquqi mexanizmlərin formalaşdırılması, eləcə də layihənin konseptual çərçivəsinin müəyyənləşdirilməsi istiqamətində işlərin davam etdirildiyini bildirib. Eyni zamanda, Dünya Bankının maliyyələşdirdiyi "Regional Yollar və İnkişaf" layihəsinin cari ilin mart ayında uğurla başa çatdığı qeyd edilib. Bildirilib ki, yol sektorunda əməkdaşlığın davamı olaraq "M3 magistral avtomobil yolunun Biləsuvar-Astara hissəsinin yenidən qurulması" layihəsinin hazırlanması və Dünya Bankı tərəfindən kredit və texniki yardım göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Öz növbəsində, xanım R.Prays Azərbaycan ilə Dünya Bankı arasında qarşılıqlı etimada və səmərəli tərəfdaşlığa əsaslanan əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib. O, "FINGROW" layihəsi çərçivəsində maliyyə əlçatanlığının genişləndirilməsi və nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş təşəbbüslərin həyata keçirilməsi istiqamətində Dünya Bankının maliyyə və ekspert dəstəyini göstərməyə hazır olduğunu bildirib.

Müxtəlif maliyyə bazarları: bir hesab, tam nəzarət



23 sentyabr 2026-cı ildə "Invest-AZ İnvestisiya Şirkəti" QSC InvestAZ PRO tətbiqinə həsr olunmuş yeni kampaniya filmini təqdim edib.

Media nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə kampaniyanın kreativ konsepsiyası və əsas mesajı təqdim olunub, daha sonra filmin ilk nümayişi baş tutub.

InvestAZ PRO kampaniyasının filmində karate üzrə beşqat dünya çempionu və Olimpiya mükafatçısı Rafael Ağayev, Everest zirvəsini fəth edən alpinist Vəfa Musayeva və tamblinq gimnastikası üzrə ikiqat dünya çempionu Tofiq Əliyev yer alıb.

Üç fərqli idman sahəsini təmsil edən qəhrəmanların hekayələri vahid ideya ətrafında birləşir: uğurlu nəticə düzgün qərar, hazırlıq, dəqiqlik və nəzarətdən başlayır. Kampaniya bu yanaşmanı investisiya dünyasına daşıyaraq "Pro" anlayışını yalnız təcrübə deyil, qərarlara peşəkar yanaşma kimi təqdim edir.

Bu yanaşma InvestAZ PRO tətbiqinin əsas vədi ilə tamamlanır: müxtəlif maliyyə bazarları - bir hesab, tam nəzarət. İstifadəçilər platforma vasitəsilə bazarları real vaxtda izləyə, müxtəlif maliyyə alətləri üzrə əməliyyatlar həyata keçirə, hesab və vəsaitlərini vahid platformadan idarə edə bilərlər. Tətbiqdə demo hesab vasitəsilə strategiyaları real vəsait olmadan sınamaq da mümkündür.

(əvvəli 4-cü səhifədə)

İstehsal və emal fəaliyyəti üçün müəyyən avadanlıq, texnologiya, xammal və materialların idxalına ƏDV və gömrük güzəştləri də verilir.

Uğurlu təcrübəni yalnız işğaldan azad edilmiş ərazilərlə məhdudlaşdırmamaq daha faydalı ola bilər. Yeni regional siyasətdə sərhəd və iqtisadi cəhətdən zəif rayonlar üçün diferensial vergi rejimi, xüsusilə istehsal və emal sənayesini konkret əraziyə bağlayan stimullar vacibdir. Məsələn, sərhəd rayonunda meyvəni xammal kimi Bakıya göndərən təsərrüfatla həmin rayonda konserv, şirə, quru meyvə və ya qablaşdırılmış məhsul istehsal edən müəssisəyə vahid vergi rejiminin tətbiqi eyni iqtisadi nəticəni yaratmır. İkinci model ucqar rayonda iş yeri və daimi məskunluğu təmin edir. Buna görə emal coğrafiyasından asılı olaraq vergi yükünün azaldılması, daha zəif inkişaf etmiş rayonlarda isə müəyyən müddət mənfəət və əmlak vergisinin sıfırlanması kapitalı Bakıdan bölgələrə yönəldə bilər.

Qeyri-mütənasib əhali axını və daxili miqrasiya paytaxtda özünü yalnız əhali sıxlığında göstərmir. Davamlı proses torpaq qiymətlərinə, mənzil və kirayə xərclərinə, nəqliyyat sıxlığına, əmək bazarına, kommunal şəbəkələrə və investisiya qərarlarına təsir edir. Sahibkar istehsalı rayonda qura biləcəyi halda kadr, bank, logistika və dövlət qurumlarına yaxın olmaq üçün Bakını seçirsə, mövcud iqtisadi qərarlar da kapitalın paytaxtda cəmləşməsini təşviq edir. Torpaq vergisində müəyyən diferensiasiya artıq mövcuddur: Bakı şəhərində sənaye və kommersiya təyinatlı torpaqlar üçün dərəcələr rayon və kəndlərlə müqayisədə xeyli yüksəkdir. Gələcək yanaşmada mənfəət vergisi, sosial sığorta, investisiya krediti, enerji tarifləri və sənaye torpağının icarəsinin də iqtisadi coğrafiyaya uyğunlaşdırılması vacibdir.

Post-neft dövründə əhalinin həyat səviyyəsini qorumağın əsas şərtlərindən biri inflyasiyanın, xüsusilə ərzaq qiymətlərinin artımının məhdudlaşdırılmasıdır. Lakin uzunmüddətli qiymət siyasəti inzibati "qiymət qadağası" üzərində qurula bilməz. Rəqabətin gücləndirilməsi, idxal kanallarının şaxələndirilməsi və logistika xərclərinin azaldılması daha dayanıqlı nəticə verə bilər.

Tikinti Azərbaycan iqtisadiyyatının son iyirmi ilində ən böyük məşğulluq və daxili tələb mənbələrindən biri olub. İnfrastruktur, Bakıdakı yaşayış və infrastruktur tikintisi, sənaye və son illərdə Qarabağın bərpası sektorun böyük iqtisadi rolunu saxlayıb. Lakin yeni göstəricilər diqqət tələb edir. 2024-cü ildə tikinti ÜDM-in 6,7 faizini formalaşdırırdı, 2025-ci ildə xüsusi çəki 6,5 faizə düşüb. 2026-cı ilin yanvar-mayında isə tikintidə yaradılmış əlavə dəyər əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23 faiz azalıb və sektorun ÜDM-də payı 4,6 faizə enib. Əmək bazarında da tikintinin çəkisi məhdudlaşıb: 2026-cı ilin ortalarında muzdla çalışanların təxminən 6,6-6,7 faizi sektorda işləyirdi.

Son rəqəmləri "tikinti böhranı" kimi təqdim etmək yanlış olar, çünki göstəricilər iri dövlət layihələrinin mərhələsindən asılı olaraq kəskin dəyişə bilər. Bununla belə, düşən nəticələr sektorun iqtisadi modelini dəyişmək üçün mühüm siqnaldır. Tikintinin növbəti mərhələsi şəhərsalma, regional inkişaf və sənaye siyasəti ilə daha sıx bağlana bilər. Əsas ölçü yeni tikintinin hansı iqtisadi fəaliyyəti öz ardınca gətirməsidir.

Azad edilmiş ərazilər yeni iqtisadi kursun ən böyük sınaqlarından biridir. İlk mərhələdə dövlət kapitalının üstünlüyü qaçılmazdır: yol, enerji, su, şəhər, məktəb və yaşayış infrastrukturu bazar gəliri ilə qurula bilməz. Lakin ikinci mərhələnin göstəricisi yaradılan iqtisadi dəyər olmalıdır. Özəl sərmayənin dövlət investisiyasına nisbəti, ixrac, aqrar məhsuldarlıq, sənaye məhsulu, turizm gəliri, daimi iş yerləri və yerli vergi bazası Qarabağın büdcəyə gəlirini artıra, iqtisadi uğurunun ölçüsü ola bilər. İşğal dövründə torpaq, su, mədən, turizm və kənd təsərrüfatı imkanları separatçıların nəzarətində olduğu üçün milli iqtisadiyyatın aktivləri kimi işləmirdi. Xankəndinin dağıntılarsız azad edilməsi suverenlik və bütövlüklə bərabər, əvvəllər kənarda qalan iqtisadi məkanı da dövriyyə qaytarır. Separatçı qurumun illik ÜDM-i təxminən 700 milyon dollar səviyyəsinə çatmışdı. İndi əsas məsələ azad torpaqları əlavə dəyər yaradan iqtisadi zonaya çevirməkdir.

İran və Rusiya: risklərin arasında yeni iqtisadi coğrafiya

Azərbaycan yeni iqtisadi kursu iki böyük qonşunun müharibə və sanksiya təzyiqi altında olduğu şəraitdə formalaşır. İranın valyuta zəifliyi və xarici ticarət məhdudiyyətləri sərhədyanı qiymət fərqləri, qeyri-formal ticarət və logistika riskləri ilə yanaşı, müəyyən iqtisadi imkanlar da yaradır. Eyni zamanda İran və Körfəz marşrutlarında qeyri-müəyyənlik Qafqaz-Xəzər alternativlərinin dəyərini yüksəldir.

Rusiya ilə bağlı vəziyyət köklü şəkildə dəyişib. Sanksiyalar, müharibə və texnologiyaya çıxışın məhdudlaşması Azərbaycanın şimala yönəltdiyi ixracı, əmək miqrasiyası və pul köçürmələrini də xeyli azaldıb. Lakin Moskvanın Mərkəzi Asiya üzərindəki əvvəlki logistika inhisarçılığının zəifləməsi Qazaxıstan, Özbəkistan və digər ölkələrin alternativ marşrutlara marağını artırır. Azərbaycan Xəzərin qərb sahilində yeni axınları Avropa və Türkiyə ilə birləşdirən əsas halqalardan birinə çevrilə bilər. İndi Bakı yükdaşımalar və logistika ilə İrəvanın da iqtisadi həyatında təsirli yer qazanır, imperiya varisi olan dövlətlərin nüfuz zonasında aktivləşir.

Rusiya və İranın üzləşdiyi geosiyasi təzyiqlər Azərbaycan üçün həm risk, həm də imkanlar yaradır. Qonşu ölkələrin qlobal və regional bazarlardakı mövqelərinin zəifləməsi yük dövriyyəsinin, kapital axınlarının, enerji və istehsal xidmətlərinin coğrafiyasını dəyişir. Azərbaycan üçün əsas məsələ yenidən bölgüdən nə qədər pay götürə bilməsidir.


Beynəlxalq analitik mərkəzlərin Cənubi Qafqaza baxışı da dəyişir. Region əvvəlki kimi münaqişə coğrafiyası və enerji dəhlizi kimi təqdim olunurdusa, indi regional və beynəlxalq bağlantı ön plana çıxır. Carnegie-nin 2026-cı ildə yayımladığı "Rewiring the South Caucasus" təhlili iqtisadi dəyişməni "yenidən şəbəkələşmə" kimi təqdim edir.

Yeni xəritədə Azərbaycanın üstünlüyü bölgədə müharibə amilinin aradan qalxması ilə mövcud infrastruktur, maliyyə ehtiyatları və coğrafi mövqenin birgə istifadəsindən asılıdır. Bütöv və suveren Azərbaycan yeni iqtisadi kurs üçün mühüm tarixi üstünlüklərə malikdir. Qarabağdan və yüksək neft hasilatı mərhələsindən sonra əsas vəzifə Zəfərin yaratdığı siyasi uğuru iqtisadi, sosial və idarəetmə üstünlüyünə çevirməkdir. Ərazi bütövlüyünü təmin etmiş dövlətin iqtisadi siyasəti artıq parçalanmış coğrafiyanın məhdudiyyətləri ilə formalaşmamalıdır.

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın Cənubi Qafqazın "qovşaq mərkəzi" kimi rolu yeni mərhələdə əlavə iqtisadi məzmun qazanır. On illərlə işğala və onun nəticələrinin aradan qaldırılmasına yönələn çoxmilyardlı büdcə vəsaitlərinin indi quruculuğa, regionda sülhün coğrafiyasının genişləndirilməsinə və dayanıqlı təhlükəsizlik arxitekturasının formalaşdırılmasına yönəldilməsi yeni iqtisadi imkanlar yaradır.

Bütöv və suveren Azərbaycanın qalib iqtisadi kursu neft asılılığını və Qarabağ münaqişəsini tarixdə ilk dəfə geridə qoyaraq, "ən böyük sərvət insandır" devizini dövlətin yeni inkişaf fəlsəfəsinə çevirmək imkanı yaradır.

Alüminium ixracında dövlət şirkətindən güclü artım



"Azəralüminium"un ixracı 48 milyon dollara yaxın artıb – 58%-lik və ya 47,9 milyon dollarlıq sıçrayış.

2026-cı ilin yanvar-avqust aylarında "Azəralüminium" MMC 130,8 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib.

Marja.az İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"na istinadən xəbər verir ki, 2025-ci ilin eyni dövründə bu göstərici 82,9 milyon dollar olmuşdu. Beləliklə, ixrac 47,9 milyon dollar və ya 57,8% artıb.

"Azəralüminium" dövlət ixracatçıları arasında nominal artım üzrə liderdir. Şirkətin ixracında 47,9 milyon dollarlıq yüksəliş qeydə alınıb.

İİTKM-in ümumi məlumatına görə, 2026-cı ilin yanvar-avqust aylarında ölkə üzrə alüminium və ondan hazırlanan məmulatların ixracı 42,8% artıb. "Azəralüminium"un 57,8%-lik artımı sektor üzrə ümumi artım tempini üstələyir. Yanvar-iyulda şirkətin ixracı 111,9 milyon dollar idi. Beləliklə, avqustda əlavə 18,9 milyon dollar ixrac həyata keçirilib.

"AzerGold" qızıl və gümüş məhsullarına endirim edib

Qızıl 2%, gümüş külçə 5%-ədək ucuzlaşdırılıb.

"AzerGold" QSC qızıl və gümüş məhsullarının satışında endirim kampaniyası elan edib.

Şirkətin müştərilərə göndərdiyi məlumatda "AzerGold"un qızıl məhsullarının qiymətinin 2%-ədək, gümüş külçə məhsullarının isə 5%-ədək endirildiyi bildirilir.

Kampaniya "Endirim fürsətini qaçırmayın!" şüarı ilə təqdim olunur.

"AzerGold"un rəsmi onlayn satış platformasında qızıl və gümüş külçələr, eləcə də müxtəlif mövzulara həsr olunmuş xatirə sikkələri satışa çıxarılır. Şirkət 2026-cı ilin iyulunda ilk dəfə yerli bazara gümüş külçələr də təqdim edib.

Şirkətin satış platformasında hazırda 20 qramlıq "Laçın" gümüş sikkəsinin 190 manata, 2 unsiyalıq "Bezoar keçisi", "Qafqaz bəbiri" və "Ceyran" gümüş sikkələrinin isə hər birinin 665 manata təklif edildiyi görünür.

2026-cı ildə dünya bazarında qızılın qiyməti çox volatillik göstərib: ilin əvvəlində sürətlə bahalaşıb rekord vurduqdan sonra ciddi korreksiyaya keçib. 2 yanvar 2026-cı ildə spot qızılın qiyməti 1 unsiya üçün 4 313,29 dollar olub. Yanvarın 26-da isə qiymət 5 110,50 dollara yüksələrək həmin vaxt tarixi maksimuma çatıb. Bu, cəmi bir neçə həftə ərzində təxminən 797 dollar və ya 18,5% artım deməkdir.



Sonrakı aylarda isə vəziyyət dəyişib. 2 oktyabr 2026-cı il səhər saatlarında spot qızıl 4 184,45 dollar səviyyəsində olub. Beləliklə:

- ilin ilk ticarət günündən bu günədək qızıl təxminən 128,84 dollar və ya 3,0% ucuzlaşıb;

- yanvardakı 5110,50 dollarlıq rekorddan isə 926 dollar və ya 18,1% aşağı düşüb;

- təkcə sentyabr ayında qızılın qiyməti təxminən 6% geriləyib.

Yəni 2026-cı ilin əsas mənzərəsi belədir: yanvarda çox güclü yüksəliş və rekord, daha sonra isə həmin artımın böyük hissəsinin geri verilməsi. Hazırda qızıl ilin əvvəlindəki səviyyədən bir qədər aşağıdır.

VNG Azərbaycandan təbii qaz idxalını artırmağa hazırdır



"Almaniyanın VNG AG şirkəti Azərbaycandan təbii qaz idxalının həcmini artırmaqda, uzunmüddətli müqavilələr bağlamaqda maraqlıdır".

Bu barədə VNG AG-nin baş vitse-prezidenti və korporativ inkişaf istiqamətinin rəhbəri Oliver Hill bildirib.

Onun sözlərinə görə, VNG Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə yalnız qaz tədarükü sahəsində deyil, həm də biometan, bərpa olunan enerji mənbələri, hidrogen və karbonsuzlaşdırılmış yanacaq növləri kimi istiqamətlərdə əməkdaşlığı genişləndirmək istəyir.

"Artıq dediyim kimi, bu, uzunmüddətli müqavilədir. Bundan əlavə, biz biometan və bərpa olunan enerji mənbələri sahəsində əməkdaşlıq üçün imkanlar görürük", – Hill qeyd edib.

O, həmçinin Azərbaycanın və ölkədən Avropaya tədarük edilən qazın hazırda Avropa İttifaqının hazırladığı metan emissiyaları sahəsində tələblərə uyğunluğunun vacibliyini vurğulayıb. "Bu, çox böyük və vacib məsələdir. Bizim üçün gələcəkdə həcmləri artıra bilmək imkanına malik olmaq önəmlidir", – o bildirib.

Hill qeyd edib ki, VNG hidrogen və digər karbonsuzlaşdırılmış yanacaq növlərində də maraqlıdır. O, bildirib ki, hazırda VNG Azərbaycandan 2,5 TVt/saat qaz idxal edir. "Biz bu həcmi mümkün qədər artırmaq istərdik", – o bəyan edib.

Hill həmçinin VNG-nin uzunmüddətli müqavilə bağlamağa hazır olduğunu təsdiqləyib. Onun sözlərinə görə, qüvvədə olan müqavilə cəmi üç il müddətinə nəzərdə tutulub, halbuki şirkət 15-20 illik razılaşmaya keçməyə hazırdır.

"Italiana Petroli"nin alınması SOCAR-ın biznes diversifikasiyasını yaxşılaşdıracaq

"Italiana Petroli"nin alınması SOCAR-ın neft emalı və satış ("downstream") istiqamətində diversifikasiyasını yaxşılaşdıracaq".

Bunu "Fitch Ratings"in korporativ reytinqlər üzrə EMEA direktoru Jakub Zasada Bakıda keçirilən "Fitch Azərbaycanda" tədbirində bildirib.

O qeyd edib ki, "Fitch" SOCAR-ın reytinqini qiymətləndirərkən Azərbaycan hökuməti tərəfindən şirkətə göstərilə biləcək dəstəyi də nəzərə alır.

Zasadanın sözlərinə görə, SOCAR-a dövlət dəstəyinin göstərilməsi ehtimalı "son dərəcə yüksək" qiymətləndirilir. Bu qiymətləndirmədə şirkətə tarixən kapital və pul vəsaitlərinin ayrılması, həmçinin SOCAR-ın Azərbaycan iqtisadiyyatında mühüm rol oynaması nəzərə alınır.

O bildirib ki, şirkətin kredit profilindəki dəyişikliklərə maliyyə göstəricilərinin yaxşılaşması da təsir göstərib.

"Fitch" rəsmisi SOCAR-ın neft hasilatında azalma müşahidə edildiyini, bununla yanaşı, qaz hasilatının artdığını qeyd edib.

Sahibkarların kommunal xərcləri ilə bağlı qayda dəyişdirilib

Nazirlər Kabineti "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında" 2 iyun 2023-cü il tarixli qərarında dəyişiklik edib.

Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, İqtisadiyyat Nazirliyi maliyyə yardımının ödənilməsi ilə əlaqədar növbəti il üzrə tələb olunan vəsaitlə bağlı büdcə layihəsini "Büdcə sistemi haqqında" qanunun 11.8-ci maddəsinə uyğun olaraq iyulun 1-nə qədər Maliyyə Nazirliyinə təqdim edəcək.



8-14 oktyabr 2026-cı il

Trans-Xəzər Fiber-Optik Kabel Layihəsi Azərbaycanın rəqəmsal tranzit qovşağı rolunu gücləndirəcək



"Hazırda işlənmə mərhələsində olan Trans-Xəzər Fiber-Optik Kabel Layihəsi Xəzər dənizi vasitəsilə yüksəktutumlu məlumat ötürülməsi üçün əlavə marşrut yaradaraq Avropa və Asiya arasında rəqəmsal bağlantını gücləndirəcək, regional kommunikasiya şəbəkələrinin davamlılığını artıracaq və Azərbaycanın rəqəmsal tranzit qovşağı kimi rolunu möhkəmləndirəcək".

Bunu iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Alman-Azərbaycan Strateji Tərəfdaşlıq və Bağlantılar Konfransında deyib.

Nazir müavini bildirib ki, etimadlı enerji və artan bərpa olunan enerji potensialı ilə birləşən yüksəktutumlu rəqəmsal əlaqələr Data Mərkəzlərinə, yüksək məhsuldarlıqlı hesablamalara və süni intellekt infrastrukturuna investisiyaları cəlb edə bilər.

ADY: Orta Dəhlizin inkişafında koordinasiya və əməkdaşlıq əsasdır



"Orta Dəhlizin inkişafı ilə bağlı əsas məsələlərdən biri infrastrukturla yanaşı, dəhliz boyunca koordinasiya və əməkdaşlığın gücləndirilməsidir".

Bunu "Azərbaycan Dəmir Yolları" QSC (ADY) sədrinin müşaviri Emil Məmmədov "Nəqliyyat və Logistika – Orta Dəhliz: Azərbaycanın Strateji Rolu və Tərəfdaşlıqları" mövzusunda paneldə çıxışı zamanı deyib.

E.Məmmədov bildirib ki, bu istiqamətdə həm ölkə daxilində müxtəlif maraqlı tərəflərlə, həm də Orta Dəhliz boyunca fəaliyyət göstərən tərəfdaşlarla əməkdaşlıq həyata keçirilir: "Orta Dəhlizin səmərəli fəaliyyətinin təmin olunması üçün marşrut üzrə bütün iştirakçıların əlaqələndirilmiş fəaliyyəti, qarşılıqlı əməkdaşlıq və koordinasiya mühüm əhəmiyyət daşıyır".

Kapital qoyuluşları azalıb, xarici investisiyalar isə 24% artıb

Azərbaycanda 2025-ci ildə əsas kapitala 21 milyard 737.9 milyon manat investisiya yönəldilib.

Ümumi kapital qoyuluşları müqayisəli qiymətlərlə 2024-cü illə müqayisədə 3.3% azalıb. Faktiki qiymətlərlə investisiyaların həcmi bir il əvvəl 22 milyard 106.3 milyon manat idi.

Ümumi azalmanın fonunda xarici mənbələrdən yönəldilən kapital investisiyaları müqayisəli qiymətlərlə 24% artaraq 4 milyard 201.8 milyon manata çatıb.

Daxili mənbələr hesabına yatırımlar isə 8.2% azalaraq 17 milyard 536.2 milyon manat olub.

Nəticədə xarici mənbələrin ümumi investisiyalardakı payı 19.3%-ə yüksəlib. Daxili investisiyalar isə ümumi kapital qoyuluşlarının 80.7%-ni təşkil edib.



17 il Mərkəzi Bankda departament direktoru işləyən A.Ələsgərov Baş direktor təyin edildi



Azərbaycan Mərkəzi Bankının (AMB) Pul siyasəti departamentinin direktoru Azər Ələsgərov qurumun baş direktoru təyin edilib. 2026-ci ilin oktyabr ayının 1-dən etibarən Mərkəzi Bankın baş direktoru vəzifəsinə təyin edilmişdir. Bununla da, baş direktorların sayı yenidən 10-a çatıb.

Azər Ələsgərov 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1997-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunun "İqtisadiyyatın tənzimlənməsi" ixtisası üzrə bakalavr, 1999-cu ildə isə həmin universitetin eyni ixtisası üzrə magistr dərəcəsindən məzun olmuşdur.

Əmək fəaliyyətinə 1997-ci ildə Mərkəzi Bankın Pul-kredit siyasəti departamentinin Pul-kredit siyasəti şöbəsində aparıcı ekspert vəzifəsi ilə başlamışdır. 2005-2009-cu illərdə Pul siyasəti departamentində Pul və məzənnə siyasəti şöbəsinin rəisi, həmin departamentin direktor müavini - Pul və məzənnə siyasəti şöbəsinin rəisi vəzifələrində fəaliyyətini davam etdirmişdir. 2009-cu ilin iyun ayından 2026-cı ilin oktyabr ayınadək Pul siyasəti departamentinin direktoru vəzifəsində işləmişdir.

2012-ci ildə Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Super infrastrukturun inkişafı ilə bağlı çağırışlar logistika şirkətlərinə də aiddir



"Orta Dəhlizin inkişafı yalnız marşrut boyunca yerləşən ölkələrin deyil, Mərkəzi Asiya, Çin və Avropa ölkələrinin idxalçı və ixracatçılarının da birgə fəaliyyətini tələb edir".

Bunu Bakı Limanının strateji planlaşdırma və inkişaf üzrə müşaviri Xudayar Həsənli "İnfrastruktur və Enerji – Dayanıqlı Əlaqələndirmənin Təmin Edilməsi" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib.

O bildirib ki, bazar iştirakçılarının bazarın tələbləri barədə əvvəlcədən məlumatlandırılması və bu məlumatlardan səmərəli istifadə etməsi Orta Dəhliz üzrə daşımaların daha effektiv təşkilinə imkan verəcək.

"Düşünürəm ki, super infrastrukturun yaradılması ilə yanaşı, bu istiqamətdə birlikdə işləməyimiz daha səmərəli nəticələr verə bilər. İnfrastrukturun inkişafı ilə bağlı çağırışlar real sektora, operatorlara və logistika şirkətlərinə də aiddir", - deyə X.Həsənli qeyd edib.

Onun sözlərinə görə, Avropa operatorlarının və digər logistika şirkətlərinin Orta Dəhlizə cəlb edilməsi marşrutun inkişafına mühüm töhfə verə bilər: ***"Bizim əsas məqsədimiz yalnız fiziki infrastruktur yaratmaq deyil, eyni zamanda, koordinasiya, planlaşdırma və səmərəliliyi təmin etməkdir".***

Aqrar və aqrar-sənaye ixracı 1 milyard dollara yaxınlaşdı

Qızıl (271,2 milyon ABŞ dolları) birinci, mis filizləri və konsentratları (183,7 milyon ABŞ dolları) ikinci, tomat (172,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"-nın 2026-cı il üzrə sentyabr sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 17,6% artaraq 2,81 milyard ABŞ dolları təşkil edib.

Cari ilin avqust ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artaraq 350,8 milyon ABŞ dolları təşkil edib. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 80,7 milyon ABŞ dollarına bərabər olub. Qeyri-yeyinti məhsullarının ixracı isə 11,4 faiz artaraq 251,1 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-avqust aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 2,3 dəfə, pambıq iplik 62,2%, alüminium və ondan hazırlanan məmulatlar 42,8%, bitki və heyvan mənşəli piylər və yağlar 30,2%, qara metallar və onlardan hazırlanan məmulatlar 20,5%, pambıq lifi 17,8%, meyvə-tərəvəz 13,7%, çay isə 12,1% artıb.

2026-cı ilin yanvar-avqust aylarında aqrar məhsullar üzrə ixrac 19,2% artaraq 732 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 22,1% artaraq 255,8 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 19,9% artaraq 987,8 milyon ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (271,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda mis filizləri və konsentratları (183,7 milyon ABŞ dolları) ikinci, tomat (172,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin avqust ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (36,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda mis filizləri və konsentratları (31,7 milyon ABŞ dolları) ikinci, şaftalı (nektarinlər daxil olmaqla) (29,4 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-avqust aylarında (qeyri-monetar qızıl istisna olmaqla) Rusiya Federasiyasına 814,2 milyon ABŞ dolları, Türkiyəyə 435 milyon ABŞ dolları, Gürcüstana 386,5 milyon ABŞ dolları, İsveçrəyə 284,4 milyon ABŞ dolları, Ukraynaya isə 101,1 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin avqust ayında Rusiya Federasiyasına 82,5 milyon ABŞ dolları, Gürcüstana 58,5 milyon ABŞ dolları, Türkiyəyə 44,4 milyon ABŞ dolları, İsveçrəyə 37,9 milyon ABŞ dolları, Ukraynaya isə 16,1 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



Ağdam Sənaye Parkında yeni şirkət - 14,2 milyon manatlıq layihə



Ağdam Sənaye Parkının yeni rezidenti tərəfindən yağ istehsalı layihəsi həyata keçiriləcək.

"AGDAM AGRO YAG" MMC-yə (Ağdam Aqro Yağ) İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib.

Şirkət tərəfindən Parkın ərazisində investisiya dəyəri 14,2 milyon manat olan yağ istehsalı müəssisəsinin yaradılması planlaşdırılır. Layihə çərçivəsində rafinə edilmiş və rafinə edilməmiş günəbaxan, qarğıdalı, soya və pambıq yağlarının istehsalı nəzərdə tutulur.

Ağdam Sənaye Parkında 14,2 milyon manat investisiya ilə yağ istehsalı müəssisəsi yaratmağı planlaşdıran "AGDAM AGRO YAG" MMC ilə bağlı bəzi hüquqi və maliyyə məlumatları məlum olub. Marja.az xəbər verir ki, Dövlət Vergi Xidmətinin məlumatlarına əsasən, "AGDAM AGRO YAG" Məhdud Məsuliyyətli Cəmiyyətinin nizamnamə kapitalı 10 manat təşkil edir.

"Fitch" Azərbaycanın cari əməliyyatlar hesabında 11%-ə yaxın profisit proqnozlaşdırıb



"Fitch Ratings" bu il Azərbaycanda həm icmal büdcənin, həm də cari əməliyyatlar hesabının profisitlə yekunlaşacağını gözləyir.

Bunu "Fitch Ratings"in Şərqi Avropa üzrə suveren reytinqlər rəhbəri, baş direktor Erich Arispe Morales Bakıda keçirilən "Fitch Azərbaycanda" tədbirində bildirib.


Onun sözlərinə görə, neft-qaz qiymətlərinin azalacağı gözləntisinə baxmayaraq, Azərbaycanın fiskal və xarici mövqeyi güclü olaraq qalacaq.

"Bu il icmal büdcə üzrə ÜDM-in təxminən 3,7%-i həcmində profisit, cari əməliyyatlar hesabında isə ÜDM-in təxminən 11%-i səviyyəsində profisit gözləyirik", – Morales bildirib.

O qeyd edib ki, "Fitch" üçün əsas məsələlərdən biri hökumətin mövcud əlverişli neft-qaz mühitindən necə istifadə etməsi və orta müddətli dövrdə dövlət maliyyəsinin neft gəlirlərindən asılılığını necə azaltmasıdır.

Morales Azərbaycanın fiskal qayda çərçivəsində qeyri-neft ilkin kəsirini azaltmağa çalışdığını və indiyədək bu istiqamətdə göstəricilərin ilkin gözləntilərdən daha yaxşı olduğunu bildirib. Onun sözlərinə görə, bundan sonrakı əsas məsələ fiskal konsolidasiyanın hansı yolla – qeyri-neft gəlirlərinin artırılması, xərclərin azaldılması və ya hər iki istiqamətdə tədbirlər hesabına həyata keçiriləcəyidir.

EIA 2027-ci ildə Azərbaycanda neft hasilatı üzrə proqnozunu artırıb



Azərbaycanda 2026-cı ildə neft və digər maye karbohidrogenlərin hasilatının orta hesabla sutkada 0,55 milyon barrel təşkil edəcəyi gözlənilir. Bu barədə ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) oktyabr proqnozunda bildirilib. Beləliklə, proqnozlar sentyabr hesabatı ilə müqayisədə dəyişməz qalıb. Proqnoza görə, göstərici 2025-ci ilin sutkada 0,58 milyon barrel təşkil edən qiymətləndirilən səviyyəsi ilə müqayisədə azalacaq.

2026-cı ilin birinci rübündə hasilat orta hesabla sutkada 0,56 milyon barel, ikinci rübdə isə 0,55 milyon barel təşkil edib. Üçüncü və dördüncü rüblərdə bu göstəricinin 0,55 milyon barel olacağı gözlənilir.

EIA-nın proqnozlarına görə, analoji dinamika 2027-ci ildə də davam edəcək. Belə ki, həmin ilin birinci rübündə hasilatın sutkada 0,54 milyon barel, ikinci rübdə 0,53 milyon barel, üçüncü və dördüncü rüblərdə isə 0,52 milyon barrel təşkil edəcəyi proqnozlaşdırılır. Ümumilikdə, 2027-ci ilin yekununda orta sutkalıq hasilat 0,53 milyon barel təşkil edəcək ki, bu da sentyabr proqnozundakı 0,52 milyon barel göstəricisindən yüksəkdir.

PR nədir? İctimaiyyətlə əlaqələrin mahiyyəti və əsas prinsipləri



PR ilə sadə reklam arasındakı fərq

PR və reklam bir-birini tamamlayan kommunikasiya vasitələri olsa da, onların yanaşmaları fərqlidir.

Reklam əsasən ödənişli kommunikasiya vasitəsilə müəyyən məhsul, xidmət və ya brend haqqında mesajın auditoriyaya çatdırılmasına yönəlir.

PR isə daha geniş məqsədə – təşkilat və onun maraqlı tərəfləri arasında münasibətlərin və etimadın formalaşdırılmasına yönəlir.

Başqa sözlə, reklam daha çox: "Bizim məhsulumuzu seçin" deyə bilər. PR isə: "Biz kimik, hansı dəyərlərə sahibik, auditoriyamıza necə fayda veririk və onunla necə etibarlı münasibət qururuq?" suallarına cavab verir.

Yaxşı PR strategiyasının əsas elementləri

Effektiv PR strategiyasını bir neçə əsas mərhələyə bölmək olar:

1. Araşdırma – auditoriyanı, ictimai rəyi, media mühitini və mövcud vəziyyəti öyrənmək.

2. Məqsədlərin müəyyənləşdirilməsi – PR fəaliyyətinin hansı nəticəyə xidmət etdiyini dəqiq müəyyən etmək.

3. Auditoriyanın seçilməsi – əsas maraqlı tərəfləri və hədəf qruplarını müəyyənləşdirmək.

4. Mesajların hazırlanması – auditoriyaya uyğun, aydın, etibarlı və ardıcıl mesajlar yaratmaq.

5. Kommunikasiya kanallarının seçilməsi – media, sosial şəbəkələr, veb-sayt, tədbirlər, müsahibələr və digər platformalardan düzgün istifadə etmək.

6. İcra – hazırlanmış PR planını həyata keçirmək.

7. Ölçmə və qiymətləndirmə – əldə olunan nəticələri analiz etmək və strategiyanı təkmilləşdirmək.

Bu proses göstərir ki, PR sadəcə yaradıcı ideya və gözəl mətn deyil. O, strateji düşüncə, kommunikasiya bacarığı, analitika və davamlı qiymətləndirmə tələb edən peşədir.

Müasir dünyada insanların diqqətini cəlb etmək nisbətən asandır, lakin etimad qazanmaq daha çətindir. Bir paylaşım, reklam və ya səs-küylü tədbir təşkilata qısa müddət ərzində böyük görünürlük qazandıra bilər. Lakin davamlı reputasiya yaratmaq üçün ardıcıl və düzgün kommunikasiya lazımdır.

Əsl PR insanları yalnız məlumatlandırmaq və ya inandırmaq deyil, onlarla qarşılıqlı anlayış və etimad əsasında münasibət qurmaqdır.

Bu səbəbdən uğurlu PR strategiyasının əsas prinsiplərini belə ümumiləşdirmək olar:

Araşdır – planlaşdır – dinlə – kommunikasiya qur – münasibət yarat – ölç – təkmilləşdir.

Yəni, PR-in mahiyyəti yalnız "özümüz haqqında danışmaq" deyil. PR – təşkilatla onun auditoriyaları arasında uzunmüddətli, etibarlı və qarşılıqlı faydalı münasibətlərin idarə olunmasıdır.

Dilarə Zamanova
Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi

Sem Altman İlon Maskı geridə qoydu: ABŞ-nin ən nüfuzlu şəxsləri açıqlandı

"OpenAI" şirkətinin rəhbəri Sem Altman ABŞ-də ən böyük təsirə və real hakimiyyətə malik şəxslərin "Vanity Fair" tərəfindən hazırlanan siyahısında birinci olub. Jurnalın "The New Establishment 2026" adlı illik siyahısında ikinci yeri "Anthropic" şirkətinin rəhbəri Dario Amodei, üçüncü yeri isə "SpaceXAI"nin sahibi İlon Mask tutub.

"Vanity Fair" Altmanın nüfuzunu "ChatGPT"nin istifadəyə verilməsi və süni intellekt texnologiyalarının sürətli inkişafı ilə əlaqələndirib. Jurnal onu gələcəkdə "dövrümüzün Oppengeymeri" kimi qiymətləndirə biləcəklərini qeyd edib.

İlk onluğa, həmçinin "Nvidia" şirkətinin rəhbəri Jensen Huang, ABŞ Federal Ehtiyat Sisteminin sədri Kevin Uorş, vitse-prezident Cey Di Vens, dövlət katibi Marko Rubio, "Alphabet" şirkətinin rəhbəri Sundar Piçai, "Netflix"dən Ted Sarandos və "YouTube" rəhbəri Nil Mohan daxil olublar.

TDT-ni APARICI BEYNƏLXALQ TƏŞKİLATA ÇEVİRƏCƏK ƏSAS GÜC ORTAQ ELM VƏ TƏHSİL MƏKANIDIR

Türk dünyasının siyasi inteqrasiyasının təməli təhsildən keçməlidir

Azərbaycan Prezidenti İlham Əliyev TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edərkən mühüm strateji fikir səsləndirib: ***"Qarşıda duran əsas vəzifələrdən biri TDT-nin beynəlxalq arenadakı rolunu gücləndirmək və onu aparıcı beynəlxalq təşkilatlardan birinə çevirməkdir".***

Bu məqsəd yalnız siyasi-diplomatik əməkdaşlığın genişləndirilməsi ilə reallaşa bilməz. Güclü beynəlxalq təşkilatın arxasında güclü insan kapitalı, elm, texnologiya, universitetlər, innovasiya ekosistemi və ortaq intellektual məkan dayanmalıdır. Bu baxımdan təhsil türk dünyasının uzunmüddətli geosiyasi, iqtisadi və texnoloji gücünün əsas infrastrukturudur. TDT ölkələri arasında təhsil inteqrasiyası nə qədər dərinləşərsə, digər sahələrə inteqrasiya üçün də insan resursu bir o qədər güclənər.

Başlanmış prosesləri sistemə çevirmək lazımdır

TDT çərçivəsində bu istiqamətdə mühüm addımlar artıq atılıb. "Türk Dünyası – 2040" sənədində ali təhsil sistemlərinin uyğunlaşdırılması, kredit sistemləri və diplomların tanınması, tələbə və alim mobilliyi, ortaq tədqiqatlar və Türk Ali Təhsil Məkanının inkişaf etdirilməsi nəzərdə tutulur. TURKUNIB (Türk Universitetlər Birliyi) və Orhun mübadilə proqramı (birliyə üzv olan Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan universitetləri arasında Erasmus tipli tələbə və müəllim mübadilə proqramıdır, məqsədi türk dünyasında akademik inteqrasiyanı, ortaq mədəniyyət və elmi əməkdaşlığı gücləndirməkdir) da bu istiqamətdə fəaliyyət göstərir.

2026-cı ilin iyununda keçirilmiş 9-cu TDT Təhsil Nazirləri toplantısında Türk Dünyası Ali Təhsil Məkanının yaradılması, keyfiyyət təminatı mexanizmlərinin uyğunlaşdırılması, diplomların qarşılıqlı tanınması, formalaşdırılması kimi təşəbbüslər gündəmə gətirilib. Mövcud təşəbbüsləri necə vahid Türk Təhsil və Elm Sisteminə çevirək?



Təhsil üzrə ekspert, dos.
İLHAM ƏHMƏDOV

Türk Dünyası Ali Təhsil Məlumat Bankının yaradılması və ali təhsildə keyfiyyət təminatı üzrə TWAQA-nın

1. Türk Ali Təhsil Məkanı real instituta çevrilməlidir

TDT üçün ən mühüm layihələrdən biri vahid Türk Ali Təhsil Məkanının yaradılması ola bilər. Bu, universitetlərin bir-birinə sadəcə tələbə göndərməsi demək deyil. Söhbət daha ciddi mexanizmlərdən gedir. Bu mexanizmlər kreditlərin, diplomların avtomatik və şəffaf tanınması, ortaq akademik standartlar, birgə magistr və doktorantura proqramları, ikili diplom, birgə laboratoriyalar, ortaq tədqiqat qrupları, professor və tədqiqatçı mobilliyi, vahid akademik məlumat bazası, ortaq keyfiyyət təminatı sistemindən ibarət ola bilər. Bu model Avropa Ali Təhsil Məkanının müəyyən təcrübələrindən öyrənə bilər, lakin türk dünyası bu təcrübə proqramını öz ehtiyaclarına uyğunlaşdırmalıdır.

2. Orhun proqramı "Erasmus+" miqyasına çıxarılmalıdır

Tələbə mübadiləsi inteqrasiyanın ən görünən formasıdır. Lakin onun miqyası məhdud qalarsa, təsiri də məhdud olacaq. Orhun proqramı türk dünyasının geniş akademik mobillik platformasına çevrilə bilər. Bunun üçün Türk Dünyası Təhsil Fondu və ya xüsusi Orhun Proqram Fondu yaradılması məqsədəuyğun olardı. 2026-cı ilin Təhsil Nazirləri toplantısında da Orhun üçün ayrıca proqram fondu və TURKUNIB-nin dSİmi katibliyinin yaradılması təklifləri müzakirə edilib, TDT Katibliyi proqramın inkişafına 1 milyon ABŞ dolları dəstək ayırdığını açıqlayıb. Növbəti mərhələ bu proqramı minlərlə tələbə və müəllimin iştirak etdiyi davamlı mexanizmə çevirməkdir.

3. Türk dünyasının ortaq elm fonduna ehtiyacı var

Təhsil inteqrasiyası elmi inteqrasiya ilə tamamlanmasa, universitet əməkdaşlığı əsasən tələbə mübadiləsi səviyyəsində qalacaq. TDT çərçivəsində Türk Dünyası Elm və İnnovasiya Fondu yaradıla bilər. Fond süni intellekt, kibertəhlükəsizlik, biotexnologiya, enerji texnologiyaları, su və iqlim problemləri, kənd təsərrüfatı texnologiyaları, kosmik tədqiqatlar, müdafiə texnologiyalarının sülh məqsədli elmi komponentləri, rəqəmsal transformasiya, sosial elmlər və türk dünyası araşdırmaları istiqamətlərində layihələri maliyyələşdirə bilər.

Beləliklə, alimlər artıq yalnız öz ölkələrinin qrantlarına deyil, ortaq türk elmi fondunun qrantlarına da müraciət edə bilərdilər. Bu, xüsusən bizim ölkə alimləri üçün maraqlı ola bilər. Çünki TDT ölkələri arasında alimlərin inkişafına, onların layihələrinə ən az qrant bizim ölkədə verilir. Bu qrantlar elmi əməkdaşlığı tədbirlərdən layihələrə keçirə bilər.

4. "Türk dünyasının ortaq universitetləri" modeli yaradılmalıdır

TDT-nin uzunmüddətli perspektivində bir neçə birgə türk universiteti və ya ortaq tədqiqat institutu yaratmaq mümkündür. Məsələn: "Türk Dünyası Süni İntellekt Universiteti" və ya "Türk Dünyası Texnologiyalar və İnnovasiya İnstitutu" yaratmaq məqsədəuyğun olardı.

Bu qurumların xüsusiyyəti yalnız "türk" adını daşıması yox, bir neçə ölkənin universitetlərinin ortaq idarəetməsi və maliyyələşdirməsi olmalıdır. Professorlar müxtəlif TDT ölkələrindən cəlb edilə bilər. Tələbələr də müxtəlif ölkələrdən qəbul oluna bilər. Diplom bir ölkənin deyil, ortaq akademik standartın məhsulu ola bilər. Bu artıq simvolik deyil, real inteqrasiya olardı.

5. Türk dünyasının ortaq "Sİ təhsil platforması" yaradılmalıdır

Süni intellekt TDT üçün xüsusi imkan yaradır. Çünki fiziki sərhədlər rəqəmsal təhsildə əvvəlki qədər əhəmiyyət daşımır. TDT ölkələri birlikdə "Türk Sİ təhsil buludu" tipli ortaq rəqəmsal platforma yarada bilər. Platformada ortaq açıq dərsliklər, SI müəllim köməkçiləri, akademik kurslar, mikrosertifikatlar, virtual laboratoriyalar, müəllimlərin peşəkar inkişaf proqramları, tələbə portfolioları, ortaq elmi resurslar, türk dillərində Sİ təhsil modelləri yer ala bilər. Bu, eyni zamanda türk dillərində böyük rəqəmsal bilik korpusunun formalaşmasına xidmət edər.

6. Türk dillərində ortaq akademik informasiya məkanı yaradılmalıdır

Türk dünyasının böyük problemlərindən biri ümumi dil Sİİəsinə baxmayaraq elmi terminologiyanın və akademik informasiya mühitinin parçalanmasıdır. Burada ortaq elmi terminologiya platforması yaradılması strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə TDT-nin əvvəlki sənədlərində də ortaq terminologiya və elmi məqsədlər üçün ümumi terminoloji resursların yaradılması ideyası yer alıb.

Növbəti mərhələdə, "Türk Elmi Terminologiya Bankı" yaradıla bilər. Məsələn, süni intellekt, kvant texnologiyaları, biotexnologiya, iqtisadiyyat, hüquq və pedaqogika üzrə əsas terminlər müxtəlif türk dillərində əlaqələndirilər. Bu, həm elmi kommunikasiya, həm də Sİ sistemlərinin Türk dillərində inkişafı üçün əhəmiyyətli baza yaradar.

(davamı gələn sayımızda)

Ahıllarla müharibə ilə əlaqədar əlilliyi olan şəxslər arasında futbol yarışı keçirildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) birgə təşkilatçılığı ilə Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri və yüksək texnologiyalı protezlərlə təmin olunmuş müharibə ilə əlaqədar əlilliyi olan şəxslər arasında futbol yarışı keçirilib.



Vətən müharibəsinin altıncı ildönümü və 1 Oktyabr - Beynəlxalq Ahıllar Gününə həsr olunan yarış ahıllar və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər arasında sosial inteqrasiyanın və sağlam həyat tərzinin təşviqi, eləcə də asudə vaxtın səmərəli təşkili məqsədi daşıyıb. Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov bildirib ki, Prezident cənab İlham Əliyevin tapşırıqlarına əsasən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi daim dövlətin diqqət mərkəzindədir. Bu kateqoriyadan olan vətəndaşların sosial təminatı ilə yanaşı, cəmiyyətə inteqrasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə də tədbirlər görülür. Oyunda 1 saylı Uşaq evi sosial xidmət müəssisəsinin sakini, Araz-Naxçıvan PFK-nın qadınlardan ibarət U-16 komandasının üzvü Qənirə Zeynalova da komandalara öz dəstəyini göstərib. AFFA-nın peşəkar hakimləri tərəfindən idarə olunan, maraqlı mübarizə və xoş anlarla yadda qalan oyun 6:6 hesabı ilə başa çatıb. Yarışın sonunda iştirakçılara təşəkkürnamələr və simvolik hədiyyələr təqdim olunub. Sonda Agentliyin 3 saylı Uşaq evi sosial xidmət müəssisəsinin sakinlərinin təqdimatında vətənpərvərlik mövzusunda kompozisiya təqdim edilib.

DOST Agentliyinin Müşahidə Şurası növbəti iclasını keçirib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin Müşahidə Şurası növbəti iclasını keçirib.

Şuranın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Prezident cənab İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanına əsasən yaradılan DOST mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi istiqamətində işlərin bu il də davam etdirildiyini bildirib. Cari ildə də Naxçıvan şəhərində Regional DOST Mərkəzinin, Tərtər, Neftçala və İmişli DOST Qəbul şöbələrinin istifadəyə verildiyi qeyd edilib.

Vurğulanıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri "bir pəncərə"dən, şəffaf və operativ şəkildə, vətəndaş məmnunluğuna uyğun göstərilir. 2026-cı ilin ötən dövründə də DOST xidmətlərindən vətəndaş məmnunluğu səviyyəsi 99,2 faiz olub.

İclasda DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov Agentliyin bu ilki fəaliyyəti, DOST mərkəzlərində vətəndaşlara göstərilən xidmətlər, innovativ rəqəmsal həllərin tətbiqi, hədəflərlə bağlı təqdimat edib.

Agentliyin fəaliyyət istiqamətləri üzrə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

В Баку обсуждены бюджет и текущая деятельность Альянса зеленого коридора



В Баку обсуждены бюджет и текущая деятельность Альянса зеленого коридора (Green Corridor Alliance JV).

Об этом генеральный директор совместного предприятия Альянс зеленого коридора Турал Алиев сообщил на своей странице в социальной сети LinkedIn.

Отмечается, что вчера состоялось заседание правления Green Corridor Alliance, в ходе которого основное внимание было уделено бюджету и текущей операционной деятельности.

Согласно публикации, были рассмотрены ключевые приоритеты на предстоящий период и обсуждены шаги, необходимые для эффективной реализации текущей работы.

"Green Corridor Alliance является совместным предприятием, созданным ОАО Азерэнержи (Азербайджан), АО KEGOC (Казахстан) и АО Национальные электрические сети Узбекистана. Инициатива берет начало от Соглашения о стратегическом партнерстве в области развития и передачи зеленой энергии, подписанного президентами Азербайджана, Казахстана и Узбекистана на COP29 в Баку 13 ноября 2024 года. Учредительное соглашение Green Corridor Alliance было подписано 27 декабря 2024 года, а штаб-квартира совместного предприятия находится в Баку", - говорится в публикации.

Экспорт нефти из Азербайджана в Швейцарию вырос в 3 раза



Согласно таможенной статистике внешней торговли, опубликованной Государственным таможенным комитетом, в январе-августе из Азербайджана в Швейцарию было экспортировано 272,5 тысячи тонн нефти и нефтепродуктов, полученных из битуминозных пород, на сумму 193,6 миллиона долларов.

По подсчетам Trend на основе этих данных, в стоимостном выражении показатель вырос на 139,7 миллиона долларов, или в 3,6 раза, по сравнению с аналогичным периодом 2025 года, а по объему - на 182,8 тысячи тонн, или в 3 раза. За отчетный период Швейцария заняла третье место среди стран, импортирующих азербайджанскую нефть.

В январе-августе прошлого года из Азербайджана в Швейцарию было экспортировано 89,7 тысячи тонн нефти и нефтепродуктов из битуминозных пород на сумму 53,9 миллиона долларов.

Отметим, что экспорт нефти из Азербайджана за 8 месяцев этого года вырос на 10,6 процента в стоимостном выражении. По расчетам Государственного таможенного комитета, в январе-августе из Азербайджана в другие страны было экспортировано 14,678 миллиона тонн сырой нефти и нефтепродуктов, полученных из битуминозных пород, на сумму 9,282 миллиарда долларов.

Согласно информации ведомства, по сравнению с аналогичным периодом 2025 года это на 886 миллионов долларов, или на 10,6 процента, больше в стоимостном выражении, при этом в натуральном выражении показатель уменьшился на 1,247 миллиона тонн, или на 7,8 процента.

Банки могут сыграть важную роль в финансировании проектов в рамках Среднего коридора



Банки могут сыграть важную роль в увязке стратегических приоритетов, связанных с развитием Среднего коридора, с частным и международным капиталом, а также в финансировании инфраструктурных и энергетических проектов.

Об этом сказал заместитель председателя правления — главный коммерческий директор «Azər-Türk Bank» Фарид Гулиев во вторник на проходящей в Баку Германо-азербайджанской конференции по стратегическому партнерству и связности, сообщает корреспондент Trend с мероприятия. Он отметил, что основное значение конференции заключается в том, что она способствует взаимодействию на единой платформе представителей государственных органов, руководителей бизнеса и финансовых институтов.

«Подобные встречи важны не только для обмена мнениями, но и для определения реальных возможностей для сотрудничества», — сказал Ф. Гулиев.

По его словам, стратегическое значение Среднего коридора постепенно возрастает. «За первые восемь месяцев этого года объем контейнерных перевозок по Среднему коридору увеличился на 58 процентов. Несколько недель назад Европейский союз также объявил о планах мобилизовать до 12 миллиардов евро государственных и частных инвестиций в Средний коридор с целью утроить торговые потоки к 2030 году», — отметил Ф.Гулиев.

В Лачине строятся еще три гидроэлектростанции



ОАО «АзерЭнержи» осуществляет в Лачинском районе строительство еще трех гидроэлектростанций общей мощностью 10,7 мегаватта.

Об этом сообщили в ОАО «АзерЭнерджи».


Для каждой из гидроэлектростанций - «Сейидляр» мощностью 4,59 мегаватта, «Бюлёвлю» мощностью 3,16 мегаватта и «Гошасу» мощностью 2,93 мегаватта, строящихся на протекающем по территории Лачинского района участке реки Шелве, возведены водозаборные сооружения. В условиях сложного горного рельефа для подачи воды на станции проложены деривационные трубопроводы общей протяженностью 14,5 километра.

В настоящее время строительные работы на всех трех станциях близятся к завершению. На станциях осуществляется монтаж турбин и генераторов. Завершить работы планируется в ближайшие месяцы.

Подписан меморандум в сфере транспорта и цифрового развития

Азербайджан и Великобритания подписали меморандум о сотрудничестве в сфере транспорта и цифрового развития.

Об этом министр цифрового развития и транспорта Азербайджана Рашад Набиев сообщил на своей странице в социальной сети.



«Провели встречу с государственным министром по вопросам торговли Департамента бизнеса, инноваций и торговли Великобритании Анасом Сарваром. В ходе встречи обсудили развитие стратегического партнерства между нашими странами, в частности вопросы расширения сотрудничества в сферах транспорта, цифрового развития, искусственного интеллекта и кибербезопасности. Подписали меморандум о взаимопонимании вместе с Дорожной картой по сотрудничеству в сфере транспорта и цифрового развития и договорились о создании Совместной рабочей группы для координации реализации мероприятий, предусмотренных документом», - говорится в публикации министра. Подчеркивается, что в ходе встречи также состоялся обмен мнениями о возможностях развития транспортной инфраструктуры и финансирования приоритетных проектов.

Süni intellekt artıq bank sisteminə yol tapıb?

25 min müştərinin şəxsi məlumatları sızıb.

Cənubi Koreyada ölkənin iri kommersiya banklarından biri olan "Shinhan Bank"a qarşı həyata keçirilmiş kiberhücumla bağlı araşdırma aparılır.

Banker.az "Bloomberg" və "Yonhap" agentliyinin məlumatına istinadən xəbər verir ki, insident nəticəsində təxminən 25 min müştərinin şəxsi məlumatlarının sızdığı bildirilir.

Sızan məlumatlar arasında müştərilərin adları, telefon nömrələri, illik gəlirləri və kredit limitləri kimi həssas maliyyə informasiyalarının olduğu qeyd edilir.

Araşdırma çərçivəsində hücumun necə həyata keçirildiyi və bankın informasiya sistemlərində hansı zəifliklərdən istifadə olunduğu müəyyənləşdirilir.

Ekspertlər hücum edən şəxslərin sistemlərdə boşluqları aşkarlamaq və icazəsiz giriş əldə etmək üçün qabaqcıl süni intellekt alətlərindən istifadə etmiş ola biləcəyini istisna etmirlər.

Bu ehtimal maliyyə sektorunda AI vasitəsilə avtomatlaşdırılmış kiberhücumların genişlənməsi ilə bağlı narahatlıqları artırır. Belə alətlər potensial olaraq zəifliklərin daha sürətli aşkarlanmasına, hücum ssenarilərinin avtomatlaşdırılmasına və maliyyə institutlarına qarşı daha mürəkkəb hücumların həyata keçirilməsinə imkan verə bilər.

Avrozonada inflyasiya 3 ilin ən yüksək səviyyəsindədir

Sentyabrda Avrozonada istehlak qiymətləri illik müqayisədə 3,8 faiz artıb. Avropa Statistika Bürosunun ("Eurostat") yaydığı məlumata görə, bu göstərici 2023-cü ilin sentyabr ayından bəri qeydə alınan ən yüksək səviyyədir.

Ekspertlərə görə, Avropa Mərkəzi Bankının faiz dərəcələrini daha da artıracağı ilə bağlı gözləntilər güclənib. Son qiymət təzyiqlərinin əsas hərəkətverici qüvvəsi enerji resurslarının qiymətinin artmasıdır.

Avropa Mərkəzi Bankının rəsmiləri yüksək əməkhaqqı tələbləri və artan korporativ qiymətlər kimi amillər vasitəsilə enerji şokunun iqtisadiyyata təsirinin qarşısını almaq istəyirlər. Bu ay faiz dərəcələrinin artırılması ilə bağlı gözləntilər azalsa da, faiz dərəcələrinin qarşıdakı dövrdə ən azı iki dəfə artırılacağı gözlənilir.

Deutsche Bank: Qızıl yenidən alış üçün cəlbedicidir

Spot qızıl sentyabrın sonlarında bir unsiya üçün təxminən 4 min 153 dollar səviyyəsində ticarət olunub və ay ərzində təxminən 6,6 faiz ucuzlaşıb. Mərkəzi banklar qızılı sürətlə yığırlar. Deutsche Bankdan vacib proqnoz: Bank bəyan edib ki, yenidən qızıl almaq cəlbedicidir, investorlar bazardan çəkilib, alış fürsəti yaranıb.

Almaniyanın iri maliyyə qurumu Deutsche Bank hesab edir ki, qızıl hazırkı qiymət səviyyələrində həddindən artıq satılıb və 2027-ci il üçün yenidən alış baxımından cəlbedici görünür.

Deutsche Bank-ın Qiymətli Metallar Araşdırmaları şöbəsinin rəhbəri Daniel Ghali bildirib ki, qızılda investor mövqeləri aşağı səviyyələrə düşüb və bazarda mövcud vəziyyət qiymətli metal üçün əlverişli imkan yaradır.

Ghali BNN Bloomberg-ə müsahibəsində ABŞ-nin 10 illik dövlət istiqrazlarının gəlirliliyinin 5 faizdən yuxarı qalxmasına və neftin bir barelinin 100 dollardan baha olmasına baxmayaraq, qızılın iyuldan bəri yeni minimum səviyyəyə düşmədiyinə diqqət çəkib. Onun fikrincə, yüksək faiz dərəcələrinin qızıl üzərində yaratdığı ciddi təzyiqə baxmayaraq, qiymətli metalın möhkəm qalması bazarın dayanıqlılığını göstərir.

Mərkəzi banklar qızıl alışını sürətləndirib

Ghali bildirib ki, mərkəzi banklar və digər rəsmi qurumların qızıl alışlarının tempi hazırda 2021–2022-ci illərdə qeydə alınan səviyyədən iki dəfədən çox yüksəkdir. Eyni zamanda, qızıl bazarında iştirak edən institusional investorların sayı və əhatə dairəsi 2021-ci ildən bəri təxminən 70 faiz genişlənib. Deutsche Bank hesab edir ki, bu fundamental amillər investorların hazırda qızıldakı aşağı mövqeləri ilə ciddi ziddiyyət təşkil edir və gələcəkdə qiymətlərin yüksəlməsi üçün zəmin yarada bilər.

İnvestorların qızıldan çıxışı kəskinləşib

Deutsche Bank-ın 30 sentyabr tarixli hesabatına görə, trendi izləyən investisiya fondlarının qızılın ucuzlaşmasına yönəlmiş mövqeləri (qısa mövqelər) 2021-ci ilin oktyabrından bəri ən yüksək səviyyəyə çatıb. Diskresion investorların uzun mövqeləri isə (qızılın bahalaşmasına yönəlmiş mövqelər) iyunda qeydə alınmış zirvə səviyyəsindən təxminən 55 faiz azalıb.

(Diskresion investor — investisiya qərarlarını əvvəlcədən sərt alqoritm və ya mexaniki qayda ilə deyil, öz təhlili, bazar baxışı və peşəkar mülahizəsi əsasında verən investor deməkdir).

CME-də qızıl fyuçersləri üzrə açıq mövqelərin həcmi də olduqca aşağı səviyyələrə düşüb. Ghali hesab edir ki, bu göstəricilər qızıl bazarında investor mövqelərinin artıq həddindən artıq zəiflədiyini göstərir.

Qızıl yüksək faizlərə müqavimət göstərir

ABŞ dövlət istiqrazlarının gəlirliliyinin yüksəlməsi adətən faiz gəliri gətirməyən qızıl üçün mənfi amil hesab olunur. Buna baxmayaraq, qızılın son aylarda yeni minimum səviyyəyə enməməsi Deutsche Bank tərəfindən qiymətli metalın güclü mövqeyinin göstəricisi kimi qiymətləndirilir.

Sentyabrda qızıl qiymətləri ciddi təzyiq altında qalıb. Qızıl sentyabrın sonlarında bir unsiya üçün təxminən 4 min 153 dollar səviyyəsində ticarət olunub və ay ərzində təxminən 6,6 faiz ucuzlaşıb. Ghali hesab edir ki, mövcud qiymət və investor mövqeləri fonunda qızıl 2027-ci ilə doğru daha cəlbedici investisiya aktivinə çevrilə bilər.

Sinqapurda kitab oxumaq pul qazandıracaq




Sinqapur hakimiyyəti sakinləri yenidən kitab oxumağa həvəsləndirmək üçün orijinal bir üsulu sınaqdan keçirir. Gündə ən azı 15 dəqiqə kitab oxuyanlara pul mükafatı veriləcək. Proqram sentyabrın sonunda kitabxanalar şəbəkəsi və mütaliəyə dəstəklə məşğul olan dövlət qurumu – Milli Kitabxana Şurası tərəfindən istifadəyə verilib. Sorğulara əsasən, Sinqapur sakinlərinin 90 faizi mütəmadi olaraq oxuduğunu bildirir. Buraya, xüsusilə, internetdəki məqalələr və sosial şəbəkələrdəki mətnlər daxildir. Lakin həftə ərzində kitab oxuyanların payı cəmi 28 faizdir. Hakimiyyət əhalini diqqəti, tənqidi düşüncəni və təxəyyülü inkişaf etdirmək üçün daha uzun və mürəkkəb mətnlər oxumağa yönəltmək istəyir.

Milli Kitabxana Şurasının ideyası mütaliəni bir növ oyuna, xal qazanılan yarışa çevirməkdir. İstəyən sakinlər rəsmi internet saytında qeydiyyatdan keçir və gün ərzində ən azı 15 dəqiqə kitab oxuduqları hər dəfə bunu platformada qeyd edirlər. Bu zaman kamera və ya testlər vasitəsilə heç bir yoxlama aparılmır. 15 dəqiqə kitab oxumaq 20 xal qazandırır. 1000 xal toplandıqda isə hökumət iştirakçıya 1 Sinqapur dolları, yəni təxminən 70 avro sent məbləğində mükafat verir.

Bu, böyük məbləğ deyil, lakin hakimiyyət hesab edir ki, bu təşviq iştirakçıları motivasiya edə bilər. İştirakçılar hər gün topladıqları mütaliə dəqiqələrinin sayını izləyə biləcəklər.

Hakimiyyət daha bir mükafat vəd edib. Əgər platformada ölkə üzrə ümumilikdə 7,5 milyon dəqiqəlik mütaliə qeydə alınarsa, hökumət maddi imkanları daha məhdud icmalara yardım proqramlarına 100 min avro ianə edəcək.

OPEC+ noyabr üçün neft hasilatı hədəflərini dəyişmədi



OPEC+ hasilatı artırmır — Brent 100 dolların üzərində qalır. OPEC+ bazara əlavə neft vermədi. G7 100 milyon barel ehtiyat buraxır, OPEC+ isə hasilatı artırmır.

OPEC+ bazar iştirakçılarının gözləntilərinə uyğun olaraq noyabr ayı üçün neft hasilatı hədəflərini dəyişməz saxlamaq barədə razılığa gəlib. Qrupun hasilat siyasətində növbəti ciddi dəyişikliklərin 2027-ci ildən əvvəl baş verməyəcəyi gözlənilir.

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və Rusiya daxil olmaqla müttəfiqlərindən ibarət OPEC+ qrupunun yeddi əsas üzvü bazar günü keçirilən qısa onlayn görüşdə noyabr ayı üzrə hasilat limitlərinin qüvvədə saxlanılmasına qərar verib. Söhbət Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Küveyt, Əlcəzair, Qazaxıstan və Omandan gedir.

ABŞ-İsrail və İran arasında davam edən müharibənin ixraca yaratdığı fasilələr fonunda Fars körfəzindəki OPEC+ ölkələri müəyyən edilmiş hasilat hədəflərindən xeyli aşağı səviyyədə neft hasil edir. Son aylarda regiondan neft ixracı normal səviyyənin təxminən 60-80%-i arasında dəyişib.

UBS analitiki Giovanni Staunovo bildirib ki, OPEC+ ölkələrinin yeddiliyi bazarın gözləntilərinə uyğun olaraq hasilat limitlərini dəyişməyib.

Onun sözlərinə görə, Hörmüz boğazından neft axınının artmasına baxmayaraq, faktiki hasilat həcmləri kvotalardan xeyli aşağı olaraq qalır.

"Buna görə də neft bazarında təklif qıtlığı davam edir", – analitik qeyd edib.

Təbrik edirik!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Jalə Fazil qızı Əliyeva "Şöhrət" ordeni ilə təltif edilib. O, Azərbaycanın ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə bu təltifə layiq görülüb.

Hazırda Jalə xanım Ailə, Qadın və Uşaq məsələləri komitəsinin sədr müavini, sosial-siyasət komitəsinin üzvüdür. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, komitə sədr müavini və sədr vəzifələrinə seçilmişdir. Hazırda MDB Parlamentlərarası Assambleyasının üzvüdür. Azərbaycan-İsveç parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri olub. 2024-cü ildə Azərbaycan - Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilib. Eyni zamanda Azərbaycan-Türkiyə, Azərbaycan-İtaliya, Azərbaycan-Hindistan, Azərbaycan-Almaniya, Azərbaycan-Avstriya və Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının üzvüdür.

Peşəkarlığı, prinsipiallığı, fədakarlığı və uzaqgörənliyi ilə seçilən dəyərli ziyalı, görkəmli alim, əsl Azərbaycan xanımı, hörmətli Jalə xanım!

Sizi "Şöhrət" ordeni ilə təltif olunmağınız və yubileyiniz münasibətilə ürəkdən təbrik edir, möhkəm can sağlığı, ailə səadəti və gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

Akademik Ziyad Səmədzadə,
Azərbaycan İqtisadçılar İttifaqı,
"İqtisadiyyat" qəzetinin kollektivi

Dünya demoqrafik tənəzzül dövrünə daxil olur

İqtisadçılar Xesus Fernandes-Vilyaverde və Patrik Norrik hesab edirlər ki, qlobal doğum səviyyəsi artıq əhalinin sadə təkrar istehsalı həddindən aşağı düşüb — bu isə BMT-nin proqnozlaşdırdığından bir neçə onillik əvvəl baş verib.

Yer kürəsinin əhalisi hələ də artır. Bununla belə, 2026-cı il tarixə bəşəriyyətin öz sayını əvvəlki səviyyədə saxlamaq üçün kifayət qədər uşaq dünyaya gətirmədiyi ilk il kimi düşə bilər. Artıq doğulan uşaqların sayı növbəti nəslin əvvəlki nəsil qədər çoxsaylı olması üçün kifayət etmir.

Bu qənaətə Pensilvaniya Universitetinin iqtisadiyyat professoru Xesus Fernandes-Vilyaverde və Şimal-Qərb Universitetinin doktorantı Patrik Norrik gəliblər. Onların hesablamalarına görə, dünyada ümumi doğum əmsalı — bir qadına düşən gözlənilən uşaq sayı — 2,19-a və ya daha aşağı səviyyəyə düşüb. Hazırkı həyat şəraitində bəşəriyyətin sadə təkrar istehsalı üçün orta hesabla hər qadına təxminən 2,2 uşaq lazımdır.

"Bildiyimiz qədərilə, belə hal indiyədək heç vaxt baş verməyib — nə müharibələr, nə də pandemiyalar dövründə", — müəlliflər yazırlar.

Bu, Yer kürəsində insanların sayının elə indi azalmağa başladığı demək deyil. Demoqrafiyada böyük ətalət mövcuddur. 1980-ci, 1990-cı və 2000-ci illərin əvvəlində doğulmuş çoxsaylı qadın nəsilləri indi uşaq sahibi olur, onların valideynləri isə əvvəlkindən daha uzun yaşayırlar. Buna görə də doğum səviyyəsi sadə təkrar istehsal həddindən aşağı düşdükdən sonra belə dünya əhalisi daha bir neçə onillik ərzində artmağa davam edə bilər.



Mərkəzi Gömrük Hospitalında "Layiqli əmək – sağlam işçi, sağlam mühit" mövzusunda maarifləndirici tədbir keçirilib



1 oktyabr 2026-cı il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin və Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin birgə əməkdaşlığı ilə Mərkəzi Gömrük Hospitalında "Ümumdünya Layiqli Əmək Günü"nə həsr olunmuş "Layiqli əmək – sağlam işçi, sağlam mühit" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova, Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədr müavini Asəf Ağayev, Tibbi Xidmət İdarəsi İlk Həmkarlar İttifaqı Birliyinin sədri Şəhla Mirzəzadə, o cümlədən həkimlər, rezidentlər, tibb bacıları, texniklər və digər əməkdaşlar iştirak ediblər. Tədbirdə salamlama nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım vurğulayıb ki, iş yerində əmək təhlükəsizliyinin təmin olunmasının, əməkdaşların peşəkar fəaliyyəti ilə yanaşı, sağlam və etibarlı iş mühitində çalışmasının göstərilən xidmətin keyfiyyətini birbaşa müəyyən edən əsas amillərdəndir.

Tədbirdə həmçinin Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədr müavini Asəf Ağayev təşkilatın mövqeyindən çıxış edərək mövzu ətrafında fikir və mülahizələrini bölüşüb. O, bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd edərək, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədova əməkdaşlığına görə təşəkkürünü bildirib.

Daha sonra Tibbi Xidmət İdarəsi İlk Həmkarlar İttifaqı Birliyinin sədri Şəhla Mirzəzadə "Layiqli əmək: təhlükəsiz iş mühiti və əməkdaşların rifahı" mövzusunda çıxış edərək ilk növbədə "Ümumdünya Layiqli Əmək Günü"nün xüsusi əhəmiyyətindən, adekvat iş-istirahət rejimindən, asudə vaxtın təşkilindən və təhlükəsiz iş şəraitinin vacibliyindən söz açıb. O, tibb müəssisələrində əməyin mühafizəsinin müstəsna rolunu vurğulayaraq, Həmkarlar İttifaqının İdarə daxilində bu istiqamətdəki fəaliyyətini diqqətə çatdırıb.

Daha sonra Mərkəzi Gömrük Hospitalının Texniki-təsərrüfat şöbəsinin rəisi İlqar Qasımov "Əməyin təhlükəsizliyi: peşə sağlamlığı və ətraf mühit" mövzusunda çıxış edərək iş yerində təhlükəsizlik texnologiyalarının tətbiqi, peşə sağlamlığının qorunması və ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən bəhs edib. Daha sonra isə həkim-infeksionist Mədinə Abdullayeva "Tibb işçilərinin peşə təhlükəsizliyi" mövzusunda çıxış edərək tibb heyətinin gündəlik fəaliyyətində infeksion təhlükəsizlik qaydaları, qoruyucu vasitələrdən düzgün istifadə və peşə risklərinin minimuma endirilməsi barədə ətraflı məlumat verib.

Tədbir interaktiv müzakirələrlə, iştirakçıları maraqlandıran sualların cavablandırılması və irəli sürülən təkliflərin dəyərləndirilməsi ilə başa çatıb.

Dilarə Zamanova,
Mərkəzi Gömrük
Hospitalının PR mütəxəssisi

ALLAH RƏHMƏT ELƏSİN

Professor Elşən Hacızadə Aysel Fərruxova-Tağıyevaya babası
ƏLƏDDİN ƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Məhiş Əhmədov, Zahid Məmmədov, Səbuhi Gülməmmədov Elşad Səmədzadə, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500